Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# Qara Qarayev

# IV

## Beynəlxalq Müasir Musiqi Festivalı

(2-8 aprel 2011, Bakı)










Fərəc Qarayev
Festivalın bədii rəhbəri

Hörmətli musiqisevərlər, əziz dostlar,

Qara Qarayev adına "XX əsrin musiqisi" 1-ci müasir musiqi Festivalını bu günlərdə keçiriləcək sayca IV olan və ənənələrin davamı kimi nəzərdə tutulan Festivaldan düz 25 il ayırır. Festivalın konsertlərində yalnız müasir musiqinin səslənməsi qarşıya qoyulan əsas məqsəddir. Vaxtilə İ.Stravinski müasir musiqi haqda fikir söyləyərək, onu "bu günün ən maraqlısı" adlandırmışdır. Lakin təəssüflə qeyd etməliyəm ki, "müasir" musiqiyə bizim konsert səhnələrində o qədər də geniş yer verilmir.

Bu baxımdan IV Festivalın konsertlər silsiləsi müəyyən dərəcədə bu boşluğu doldura bilər. Tədbirlər planı çərçivəsində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Qara Qarayev adına Dövlət Kamera Orkestri, Ensemble Reconsil Wien (Avstriya), Ascolta Ensemble (Almaniya), Freiburg Percussion Ensemble (Almaniya), Con tempo (Azərbaycan); solo proqramla – gürcü pianoçusu Nino Jvania və alman fleyta ifaçısı Beatrix Wagner çıxış edəcəklər.

Bakı musiqisevərləri XX əsr klassiklərindən Avstriya Yeni Vyana Məktəbi nümayəndələrinin – A.Schönberg, A.Webern, A.Berg'in əsərlərini yenidən eşitmək, ötən əsr avantgarde cərəyanının görkəmli nümayəndəsi K.Stockhausen, fransız bəstəkarlarından müasir Avropa musiqisinin yaranmasına təkan verən E.Satie və La Jeune France hərəkatının lideri, yaradıcılıq istiqaməti baxımından bu gün də unikallığını saxlayan O.Messiaen musiqisi ilə tanış olmaq imkanı qazanacaqlar.

Avropa musiqisində keçən əsrin sonunun aparıcı bəstəkarları olan macar G.Ligeti və polyak W.Lutoslavski`nin əsərləri də konsert proqramına daxil edilmişdir. Bakıda ilk dəfə olaraq "spektral" məktəbin nümayəndəsi G.Grisey, Avropa konsert səhnələrində layiqincə təmsil olunan iki rus bəstəkarı V.Tarnopolski və A.Raskatov, eləcə də yaradıcılığı ilə "yeni" və "müasir" musiqi anlamı daşıyan bir çox bəstəkarların əsərlərinin səslənməsi nəzərdə tutulmuşdur. Təbii ki, Festivalın proqramlarında müasir azərbaycan musiqisinə də kifayət qədər yer ayrılmışdır.

Müasir musiqi ilə maraqlanan dinləyiciləri Festivalın tədbirlərində görməyimizə şad olaraq ümid edirik ki, hər birinizə istədiyiniz və gözlədiyiniz musiqini eşitmək imkanı qazandıracağıq!

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası



# Qarayev mirası müasir musiqi Festivalı

Qara Qarayevin adını daşıyan müasir musiqi Festivalı ilk dəfə Bakıda, bəstəkarın vəfatından dörd il sonra, 1986-cı ildə dirijor Rauf Abdullayev, bəstəkarlar Oleq Felzer və Fərəc Qarayevin təşəbbüsü ilə təşkil edilmişdir. Festival hər iki ildən bir mütəmadi olaraq - 1988 və 1990-cı illərdə keçirilmişdi. Bu festivallarda sovet dönəmində heç bir zaman səslənməyən əsərlər ifa edilmiş, müasir musiqinin ən müxtəlif və qabaqcıl təmayüllərinə yer verilmiş, o zamanadək Sovetlərdə yasaq edilmiş Arnold Schönberg və Olivier Messiaen, John Cage və György Ligeti kimi bəstəkarların əsərləri ifa edilmişdi. 1990-cı ilin dekabrından sonra bir daha keçirilməyən Festival bu gün, 20 idən çox bir zaman keçdikdən sonra yenidən bərpa edilir və artıq IV dəfədir ki, paytaxtımızda keçirilir.

Qara Qarayev – Azərbaycan bəstəkarlıq məktəbinin yaradıcısı, sovet musiqisinin klassiki, milli incəsənətimizi müasir beynəlxalq səviyyəyə qaldıran insan olmuşdur.

Qarayev Azərbaycanda Avropa incəsənəti ənənələrinə əsaslanan ilk professional əsər – Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının yaranmasından düz 10 il sonra, 1918-ci il fevralın 5-də Bakıda anadan olmuşdur. Qısa zaman çərçivəsində bəstəkarlıq məktəbimizin qurulması, çoxəsrlik qərb musiqi mədəniyyətinin yolunu bir insan ömrü ərzində keçmək kimi çətin missiya məhz onun öhdəsinə düşmüşdü. Görünür məhz buna görə də o, yaradıcılığındakı ilk addımlarından başlayaraq müxtəlif təmayülləri uzlaşdırmağa can atırdı. 30-cu illərin sonlarında fortepiano üçün "Tsarskoyeselo heykəli" əsərində milli musiqi elementi impressionist çalarları ilə; 40-cı illərdə "Leyli və Məcnun" simfonik poeması, I və II simfoniyalarda – Azərbaycanın lad və melosu Avropa simfonizmi prinsipləri, kontrapunkt texnikası və mürəkkəb harmonik birləşmələrlə; 50-60-cı illərdə "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərində – milli özünəməxsusluq politonal, poliritmik və polimetrik vasitələrlə qovuşuq şəkildə verilmişdi.



Dmirti Şostakoviç ilə birgə, 70-ci illlər

Fortepiano üçün 24 prelüd və Violin sonatasında milli və Avropa elementləri daha geniş şəkildə sintez olunur; səslənmədən aydın hiss olunan Azərbaycan lad-intonasiyalığı dərin milli musiqi təşəkkürünü açır, statik və dinamik münasibət, improvizasiya və variantlıq, meditativlik və impulsivliyin qarşılıqlı vəhdəti əks olunur.

Bəstəkar Qarayevin yaradıcılıq yolu o dərəcədə uğurlu sürətlə inkişaf edirdi ki, artıq 60-cı illərin ortalarında o, demək olar ki, bütün mümkün fəxri adlara layiq görülmüşdü. Həmin dövr müəllifləri arasında ona rəqib sayıla biləcək yalnız bəstəkarın ömrünün sonuna qədər sadiqlik və minnətdarlıq hissi bəslədiyi müəllimi Dmitri Şostakoviç ola bilərdi.



Qara Qarayev IV müasir musiqi festivalı

Maraqlıdır ki, məhz şöhrətinin zirvəsindəki bir dövrdə Qarayev öz yaradıcılığını köklü dəyişikliklərə uğradır, sovet ideologiyası tərəfindən formalistik və reaksion bəstəkarlıq texnikası hesab edilən dodekafoniyaya müraciət edir. Bu texnika həmin dövrdə sovet təbliğatı tərəfindən kəskin tənqid edilirdi və təbii ki, istifadəsi faktiki olaraq qadağan edilmişdi.

Adlı-sanlı bir müəllif tərəfindən bu addımın atılması təkcə bəstəkarın özü üçün deyil, həm də bütün sovet musiqisi üçün bir yenilikçilik idi. Sovet incəsənəti klassikinin "burjua" yazı metoduna müraciəti, gələcəkdə müasir qərb texnologiyalarından aktiv istifadə edəcək musiqiçilərin "haqlılığı" üçün tutarlı arqument və başlıca amil idi. Sovet avanqardının tanınmış liderlərindən olan Alfred Schnittke`nin Azərbaycan bəstəkarının insani və yaradıcı portreti haqda qeydləri bu baxımdan maraqlıdır: "Qarayev şəraitə, müxtəlif təsirlərə tabe olmayan, böyük formata malik, müstəqil inkişaf yolunu tutmuş bəstəkar idi. Bu təsadüf olunan elə nadir hallardandır ki, təqdim olunmuş mükafat və titullar haqlı olaraq verilmişdi və Qarayevin bəstəkar kimi əhəmiyyəti ona verilən adlardan yüksək idi".

1964/67-ci illərdə bəstəkar, yaradıcılığının əlçatmaz zirvələri hesab olunan, dodekafon texnikalı III Simfoniya və Violin və simfonik orkestr üçün Konsertini yaradır. Bununla da sənətkar onillikləri qabaqlayaraq Azərbaycan bəstəkarlıq məktəbi və ümumiyyətlə, milli mədəniyyətin inkişaf yollarını müəyyənləşdirmiş olur. Buna baxmayaraq hər iki əsər Qarayevin özü üçün birmənalı deyildi. Bu, çox güman ki, bəstəkarın kifayət qədər gec - demək olar ki, 50 yaşında ikən yeni bəstəkarlıq texnikasını sınamaq qərarının çətinliyindən irəli gəlirdi. O, III Simfoniya və Violin ilə simfonik orkestr üçün Konsertdən sonra bu texnikada fransız yazıçısı Henri Barbusse'ün əsəri əsasında "Zəriflik" monooperasını, Fortepiano və Violonçel Konsertlərini, Orqan üçün fuga`nı yazmağa başlayır, amma əvvəlki zirvələrə çatmadığını dərk edərək bu əsərləri yarımçıq qoyur. Yalnız xəstəlik dövründə yazılmış sonuncu əsər – Fortepiano üçün 12 fuga işıq üzü görür.

Son dövrün iri həcmli formaları arasında daha çox Edmon Rostand'ın "Cyrano de Bergerac" əsəri əsasında yazılmış "Coşğun qaskoniyalı" müzikli diqqəti cəlb edir. Burada neoklassisizm rok musiqisi elementləri ilə, yüksək lirika isə məişət janr və səhnələri ilə birləşir.

13 may 1982-ci ildə Qara Qarayev dünyasını dəyişdi. Özündən sonra isə onun musiqisi, aurası, fikir və düşüncələri, Qarayev ənənələri və Qarayev məktəbi qaldı. Qarayev məktəbi – yetmişə qədər tələbə, həmfikir və ardıcıllarını özündə birləşdirir.



İqor Straviski ilə birgə, ABŞ, 1961-ci il

*Qara Qarayevin XX əsr musiqisində ən çox dəyərləndirdiyi sənətkarlardan biri İ.Stravinski idi. 1961-ci ilin yayında Qarayev I Beynəlxalq Los-Angeles musiqi festivalında olarkən bu böyük bəstəkarla tanış olmuş və bu tanışlıq, festival təəssüratları onun yaddaşında silinməz iz buraxmış, gələcək yaradıcılıq axtarışlarının istiqamətinə dərindən təsir etmişdi.*

Böyük bəstəkarın ismini daşıyan Festivalda müasir musiqinin müxtəlif təmayülləri ilə rastlaşacaq, bir çox məşhur ifaçılar və kollektivləri dinləyəcəksiniz. Onların sırasında Patricia Kopatchinskaja, Bernhard Wulff, Aleksandr İvaşkin, Ensemble Ascolta, Freiburg Percussion Ensemble, Ensemble Reconsil və başqaları vardır.

**Rauf Fərhadov**
sənətşünaslıq doktoru

## Festival Proqramı

### 2 aprel 2011, saat 19.00 — Festivalın Açılışı

Azərbaycan Dövlət Filarmoniyası

**Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri**, dirijor **Rauf Abdullayev**
solistlər **Nino Jvania** / piano (Gürcüstan), **Aleksandr İvaşkin** / violonçel (Böyük Britaniya)

| | |
|---|---|
| Anton von Webern (1883-1945) | Passacaglia (1910) |
| Arif Məlikov (*1933) | Simfoniya №4 (1977) |
| Olivier Messiaen (1908-1992) | Oiseaux exotiques (1955) |
| Vladimir Tarnopolski (1955) | ...deyə bilmədiyi sözlərin küləyi (1996) |
| Witold Lutosławski (1913-1994) | Orkestr üçün Kitab (1968) |

### 3 aprel 2011, saat 16.00 — Luzifers Traum

Rüstəm Mustafayev ad. Dövlət İncəsənət Muzeyi

**Nino Jvania** / piano (Gürcüstan)

| | |
|---|---|
| Karlheinz Stockhausen (1928-2007) | Klavierstück XIII (1981) |

### 3 aprel 2011, saat 19.00 — Euonymus 2/11/08

Dövlət Kamera və Orqan Musiqisi Zalı

**Ensemble Reconsil Wien** (Avstriya), dirijor **Roland Freisitzer**
solistlər **Fəridə Məmmədova** / soprano, **Thomas Schön** / saksofon, **Bojidara Kouzmanova** / violin

| | |
|---|---|
| Alexander Wagendristel (*1965) | Dioscuri (2011) |
| Alban Berg (1885-1935) | 7 frühe Lieder für Sopran und Ensemble (1905-08) |
| Julia Purgina (*1980) | Euonymus 2/11/08 (2009-2010) |
| Gerard Grisey (1946-1998) | Périodes (1974) |
| Manuela Kerer (*1980) | Plas (2011) |
| György Ligeti (1923-2006) | Kamera konserti (1969/70) |

### 4 aprel 2011, saat 10.00 — Elmi-nəzəri konfrans

Muzey Mərkəzi

Çıxışlar, dəyirmi masa, diskussiyalar, aparıcı Dr. **Rauf Fərhadov** (Rusiya)

### 4 aprel 2011, saat 20.00 — Klangfarben und Lichtmusik

Dövlət Gənc Tamaşaçılar Teatrı — XX əsrin əvvəlində çəkilmiş filmlərə musiqi

**Ensemble Ascolta** (Almaniya)
dirijor **Titus Engel**

Entr'acte (rejissor René Clair, 1924), musiqi Erik Satie (1924)
Lichtspiel op. 4 (rejissor Walter Ruttmann, 1927), musiqi Sven-Ingo Koch "Barabande" (2007)
Vormittagsspuk (rejissor Hans Richter, 1928), musiqi Martin Smolka "Hats in the sky" (2004)
un chien andalou (rejissor Luis Bunuel, Salvador Dalí, 1929), musiqi Iris ter Schiphorst (2010)
Entr'acte (rejissor René Clair), musiqi - Martin Smolka "En tractant" (2008)
Studie Nr. 7 (rejissor Oscar Fischinger, 1930), musiqi Johannes Brahms "Macar rəqsi No. 5

### 5 aprel, 2011, saat 10.00 — Karlheinz Stockhausen filminin təqdimatı

Muzey Mərkəzi

Təqdimatçı **Arina Krıtska** (Almaniya)

**"Karlheinz Stockhausen'in dünya teatrı** (İŞIQdan ŞƏNBƏ)"





### 5 aprel, 2011, saat 19.00 — Zamanla üz-üzə

Azərbaycan Dövlət Filarmoniyası

**Qara Qarayev adına Dövlət Kamera Orkestri**, dirijor **Vladimir Runçak** (Ukrayna)
solistlər **Kaoko Amano** / soprano (Avstriya), **Patricia Kopatchinskaja** / violin (İsveçrə)

| | |
|---|---|
| Arnold Schönberg (1874 –1951) | Simli kvartet Nr. 2 (1908) |
| Toru Takemitsu (1930-1996) | A. Tarkovskinin xatirəsinə Nostalgia (1987) |
| Aleksandr Raskatov (*1953) | Xenia (1991) |

### 6 aprel, 2011, saat 19.00 — Heavy Metal

Beynəlxalq Muğam Mərkəzi

**Beatrix Wagner** / fleyta solo (Almaniya)

| | |
|---|---|
| Bernhard Lang (*1957) | Schrift 1.2 (1998) |
| Kaija Saariaho (*1952) | Laconisme de l'aisle (1982) |
| Gerald Eckert (*1960) | Klangräume II (1991/2000) |
| Salvatore Sciarrino (*1947) | All'aure in una lontananza (1977) |
| Türkər Qasımzadə (*1988) | Erin Lesser üçün solo (2010) |
| Bruno Maderna (1920-1973) | Musica su due dimensioni (1958) |
| Gordon Kampe (*1976) | Heavy Metal (2008) |
| Georg Friedrich Haas (*1953) | Finale (2004) |

### 6 aprel 2011, saat 19.00 — Görüş. Muğam+

Dövlət Kamera və Orqan Musiqisi Zalı

**Con tempo ansamblı** (Azərbaycan)

| | |
|---|---|
| Xəyyam Mirzəzadə (*1935) | Dämmerung (2003) |
| Firudin Allahverdi (*1980) | Starvation (2009) |
| İsmayıl Hacıbəyov (1949-2006) | İstək (1998) |
| Oleq Felzer (1939-1998) | Vestige (1993) |
| Rəhilə Həsənova (*1951) | Çeşmə silsiləsindən iki pyes |
| Vasif Allahverdiyev (*1963) | Qarabağ balladası (2000) |
| Rüfət Xəlilov (*1974) | Erwartung (2008) |

### 7 aprel 2011, saat 19.00 — Träume

Azərbaycan Dövlət Filarmoniyası

**Freiburg Percussion Ensemble** (Almaniya)
dirijor **Bernhard Wulff**

| | |
|---|---|
| Bernhard Wulff (*1946) | Lerche (1981) |
| Dimitri Yanov Yanovski (*1963) | Memorial (2003) |
| Iannis Xenakis (1922-2001) | Rebonds (1989) |
| Natsag Jantsannorov (1949) | Çingiz ölkəsi üzərindən (2003) |
| Emmanuel Sejourne (*1961) | Vous avez du feu? (2008) |
| Nicolaus A. Huber (*1939) | Clash music (1988) |
| Elmir Mirzəyev (1970) | L'identification de la vengeance d'Eurydice |
| Javier Alvarez (1956) | Temazcal (1984) |
| Steve Reich (*1936) | Drumming part 1 (1970-71) |

### 8 aprel 2011, saat 19.00 — Festivalın Bağlanışı

Azərbaycan Dövlət Filarmoniyası

**Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri**
dirijor **Rauf Abdullayev**, solist **Patricia Kopatchinskaja** / violin (İsveçrə)

| | |
|---|---|
| Alban Berg (1985-1935) | Violin Konserti (1935) |
| Qara Qarayev (1918-1982) | Violin Konserti (1967) |
| Fərəc Qarayev (*1943) | Orkestr və solo violin üçün Konsert (2004) |

## Festival ifaçıları



foto Marco Borggreve ©

**Patricia Kopatchinskaja** Moldovada musiqiçi ailəsində anadan olmuş, violin və bəstəkarlıq ixtisası üzrə Vyana və Berndə təhsil almışdır. 2000-ci ildə Mexikoda Szeryng müsabiqəsində, 2002-ci ildə isə nüfuzlu *International Credit Suisse Group Young Artist Award* da qalib olmuşdur. 2002/03-cü il mövsümündə "Rising Stars" konsert silsiləsi ilə New York`dan başlayaraq bir çox Avropa paytaxtlarında Avstriyanı təmsil etmişdir. 2004-cü ildə Avropa Radio verlişləri Birliyinin (the European Broadcasting Union (EBU) "New Talent - SPP Award" və 2006-cı ildə "Förderpreis Deutschlandfunk" mükafatlarını almış, tanınmış orkestrlər (Vyana Filarmonik orkestri, Vyana Simfonik orkestri, Ştuttqart Radio Simfonik orkestri, Rusiya Dövlət Simfonik orkestri, Tokyo Simfonik orkestri və s.) və dirijorlarla (Arming, Ashkenazy, Fedoseyev, Goodman, Herreweghe, Jansons, Neeme və Paavo Järvi, Phlippe Jordan, Kim, Korsten, Langrée, Nelsons, Norrington, Oramo, Penderecki, Schiff) əməkdaşlıq etmişdir. Kopatchinskaja bir çox möhtəşəm konsert salonlarında (Carnegie Hall və Lincoln Center, Wigmore Hall və Royal Festival Hall, Sidney Opera House, Berliner Philharmonie, Musikverein Wien, Concertgebouw Amsterdam, Moskva Konservatoriyasının Böyük Zalı və s.) səhnəyə çıxır, müntəzəm olaraq mühüm Festivallara dəvətlər alır.

2010/11-ci il konsert mövsümünə Peter Eötvös və Esa-Pekka Salonen`in violin Konsertlərinin bəstəkarların dirijorluğu ilə ifası, Finlandiya Radio Simfonik Orkestrı və Sakari Oramo ilə qastrol səfəri daxildir. Patricia Kopatchinskaja müasir musiqini özünəməxsus tərzdə, əsasən geniş dinləyici təbəqəsinə yaxın üslubda ifa etməyə çalışır. Sənətçinin ifa etdiyi violin 1834-cü ildə Giovanni Francisco Pressenda tərəfindən hazırlanmışdır.



**Nino Jvania** 2000-ci ildə Tiflis Dövlət Konservatoriyasını (V. Saracişvilinin sinfi) bitirdikdən sonra DAAD proqramı üzrə Düsseldorfda R.Schumann Ali Musiqi Məktəbində təhsilini davam etdirmişdir. Təhsil illərində öz ifaçı üslubunun inkişafı ilə əlaqədar davamlı məşğuliyyətinin nəticəsi olaraq aktiv konsert fəaliyyətinə görə Solo və Kamera musiqisi kateqoriyaları üzrə Schmolz-Bickenbach mükafatına layiq görülmüşdür.

Avropada təhsil aldığı illərdə musiqi təfəkkürünün inkişafı sahəsində də axtarışda olmuşdur. Bunun nəticəsi kimi K.Stockhausen kurslarının iştirakçısı olmuş, ustad dərslərində bəstəkarın bir neçə pyesinin onun özü ilə bərabər öyrənib ifa etmişdir. Beləcə pianoçuda XX əsr, xüsusilə də modern musiqiyə ciddi maraq oyanmışdır. Bu xüsusi maraq onu Fransaya International Piano XXe siècle d'Orléans 2002 Festivalına gətirib çıxarır. O, burada üç müxtəlif mükafata layiq görülür. Bu qalibiyyət onu müasir musiqi sahəsində daha çox çalışmağa cəlb edir. 2003-cü ildə Frankfurtda Beynəlxalq Ensemble Modern Akademiya ilə bir neçə layihəyə qatılır.

2005-ci ildə Gürcüstana qayıdaraq Dövlət Konservatoriyasında professor V.Saradjishvilinin assistenti olaraq işləyir və eyni zamanda doktorluq dissertasiyası üzərində ("Karlheinz Stockhausen`in Piano əsərləri və Yeni Musiqidə pianoçuluq funksiyalarının genişləndirilməsi problemi") çalışır. Pianoçu qonaq qismində müasir musiqiyə təmayüllü bir çox Festivallara dəvət olunur: Müasir pianoçuluq üçün yay məktəbi 2002 (Boston, USA), Encuentros 2003 (Buenos-Aires, Argentina), Müasir musiqi axşamları 2006 və 2007 (Tiflis, Gürcüstan), Stockhausen-Symposia 2008 (Kiyev, Ukrayna). 2007-ci ildə gənc gürcü bəstəkarları və ifaçıları ilə Müasir Professional Musiqi - Kontrapunkt Festivalının əsasını qoyur və eyni zamanda "Gənc musiqişünaslar və bəstəkarlar birliyi" ilə əməkdaşlıq edərək gənc bəstəkarların əsərlərini təbliğ edir. Hal-hazırda Nino müxtəlif dövr və ölkə bəstəkarlarının musiqisi üzərində işləyərək repertuarını daim zənginləşdirir.





## Festival ifaçıları



**Aleksandr İvaşkin** violonçel ifaçısı, dirijor və musiqişünas, yalnız ənənəvi repertuar ifaçısı kimi deyil, həm də müasir musiqinin təbliğçisi kimi beynəlxalq tanıtım qazanmışdır. Rusiya Musiqi Akademiyasını violonçel və musiqişünas ixtisasları üzrə bitirmiş, Moskva Konservatoriyasında G.Rojdestvenski, B.Haykin, V.Polyanskidən dirijorluq üzrə dərs almışdır.

A.İvaşkin bir çox tanınmış orkestrlər ilə 40-dan çox ölkədə çıxışlar etmiş, A.Schnittke kimi bir bəstəkarın xüsusi olaraq əsər yazdığı üç tanınmış violonçel ifaçısından (M.Rostropoviç, N.Gutman) biri olmuşdur. Bir çox məşhur musiqi festivallarının iştirakçısı olan A.İvaşkin J.Cage, J.Crumb, M.Kagel, K.Penderecki, E.Denisov, A.Pärt, S.Gubaidulina, G.Kancelli, R.Şedrin ilə çalışmış, A.Schnittke, K.Penderecki, N.Korndorf, A.Raskatov, V.Yekimovski, F.Qarayev, D.Smirnov, P.Skaltorpa və s. əsərlərinin ilk ifaçısı olmuş, S.Rahmaninov, S.Prokofyev, D.Şostakoviç, A.Schnittke, N.Roslavets, İ.Çerepnin, G.Kançelinin violonçel üçün yazılmış bütün əsərlərini Chandos Records firması ilə 40-dan çox diskə yazdırmışdır.

Dirijor kimi o, Avropa ölkələri, Rusiya, Azərbaycan, Kanada, Avstraliya və Yeni Zelandiya orkestrləri ilə çıxışlar etmiş, 18 kitab, adı çəkilən ölkələrdə nəşr edilmiş 200-dən çox məqalənin müəllifidir.

Aleksandr İvaşkin "The Bridgewater Trust" fondunun ona təqdim etdiyi Giuseppe Antonio Guarneri'nin violonçelində (1710) ifa edir. Hal-hazırda A.İvaşkin London Universitetinin professoru, Londonda rus musiqi Mərkəzinin direktoru, həmçinin violonçel ifaçılarının Adams adına Beynəlxalq festival və müsabiqəsinin, Londonda hər il keçirilən kamera musiqisi festivalı və violonçel ifaçılarının beynəlxalq müsabiqəsinin direktorudur.



**Fəridə Məmmədova** 1994 - cü ildə fortepiano ixtisası üzrə Bülbül adına orta ixtisas musiqi məktəbini fərqlənmə ilə bitirmiş və həmin ildə Bakı Musiqi Akademiyasının eyni zamanda iki - fortepiano və vokal fakultələrinə daxil olmuşdur. 1998-ci ildə bu fakultələri fərqlənmə ilə bitirərək bakalavr diplomu almış və vokal üzrə təhsilini davam etdirərək 2000-ci ildə magistraturanı yenə də fərqlənmə diplomu ilə bitirmişdir.

Tiflis, Dresden, Ştuttqart və Weimar şəhərlərində opera və kamera musiqisi üzrə vokal dərsləri almış və ustad siniflərində iştirak etmiş, öz sənətini təkmilləşdirmişdir. Fəridə Məmmədova 1997-ci ildə vokalçıların Respublika müsabiqəsinin laureatı olmuş və "İlin ən yaxşı vokalçısı" adına layiq görülmüşdür. 2000-ci ildə o, vokalçıların Bülbül adına Beynəlxalq müsabiqəsinin laureatı adını almış, 2007-ci ildə isə Almaniyada Max Reger adına Beynəlxalq müsabiqənin finalçısı olmuşdur.

1997-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının solistidir.

Fəridə Məmmədovanın geniş repertuarı dünya bəstəkarlarının klassik və müasir opera və kamera əsərlərini əhatə edir. Dəfələrlə Azərbaycanda və onun hüdudlarından kənarda (Almaniya, Avstriya, İsveçrə, Fransa, Belcika, Hollandiya, Çexiya, Türkiyyə, Rusiya, Ukrayna, Monqolustan və s.) qastrol səfərləri və nüfuzlu beynəlxalq festivallarda iştiraki onu yüksək səviyyəli və yeniliklərə açıq bir musiqiçi kimi təsdiqləyib.

## Festival ifaçıları



**Thomas Schön** – Avstriya klarnet ifaçısı, ilk təhsilini Vyana Konservatoriyasında prof. Rudolf Jettel və Horst Hajek 'in sinfində almışdır. Təhsil illərindən başlayaraq Vyananın, Berlinin və Moskvanın müxtəlif orkestrlərində çalışmış, Klangforum Wien kimi ünlü bir müasir musiqi kollektivi ilə, eləcə də solist kimi həm vətəndə, həm də xarici ölkələrdə çıxışlar etmişdir.

1988-ci ildən saksofon ifaçılığı ilə də məşğul olmuş, Jean-Marie Londeix'in ustad dərslərində iştirak etmiş, Wiener Saxophone Quartet kollektivinin üzvü olmuşdur.

"Jugend musiziert" müsabiqəsində I mükafata, İsveçrədə nəfəsli alətlərin Beynəlxalq Kamera Musiqisi Müsabiqəsində III mükafata, ABŞ-da keçirilən "The East and West Aritsts Audition" müsabiqəsində I mükafata (son iki müsabiqədə Wiener Saxophone Quartet kollektivi ilə birgə) layiq görülmüşdür.

2003-cü ildən Ensemble Reconsil müasir musiqi ansamblının üzvüdür.



**Bojidara Kouzmanova** – violin ifaçısı, Lubomir Pipkov Ali Musiqi Məktəbini bitirdikdən sonra təhsilini Vyana Musiqi və İncəsənət Universitetində (prof. Gunter Pichler) davam etdirmiş, prof. Munteanu (Rumıniya), V. Milanova (Bolqarıstan), M.Barta (ABŞ), José Luis Garcia (İspaniya), Alois Kottmann (Almaniya) və Vladimir Spivakovdan ustad dərsləri almışdır.

Konsert ifaçısı kimi Bolqarıstanın bir çox orkestrləri, Praqa Radio Simfonik orkestri, Bohuslav Martunu filarmonik orkestri, Bazel Yeni simfonik orkestri, Graz İstirahət (Recreation) orkestri, Kottmann Streicher və Bachsolisten və s. kollektivlər ilə bərabər çıxışlar etmişdir. İfaçı dünyanın bir çox ölkələrində - Avstraliya, Avstriya, Fransa, Almaniya, Yunanıstan, İsrail, İtaliya, Portuqaliya, Slovakiya, İspaniya və ABŞ-da solist kimi çıxış etmişdir. Bir çox bəstəkarlar ifaçı üçün xüsusi olaraq əsərlər yazmış (R. Dmitrov, M. Kerer, P. Liakakis, J. Purgina, P. Richter, T. Wally və s.), solo ifaçısı kimi fəaliyyəti dünya mətbuatında, (Frankfurter Allgemeine Zeitung, Argauer Zeitung, Basellandschaftliche Zeitung və s.) geniş əks-səda doğurmuşdur.

İfaçı kimi fəaliyyəti dövründə müxtəlif dövrləri əhatə edən əsərlərdən ibarət 12 CD yazdırmışdır ki, buraya daxil olan əsərləri Stradivarinin "Da Vinci" (1725) və " Red Diamond"(1732) alətlərində ifa etmişdir.





Festival ifaçıları



**Kaoko Amano** ilk təhsilini Tokio Gakugei Universitetinin vokal bölümündə almış, sonra təhsilini Vyana Konservatoriyasında davam etdirmiş, Heinz Zednik, Kurt Widmer və Ronald Pries'dan ustad dərsləri almışdır.

Vokalçıların 8. Emmy Destinn müsabiqəsinin qalibi kimi 2-ci mükafata layiq görülmüşdür.

Opera ifaçısı kimi bir çox operalarda müxtəlif obrazlarda səhnəyə çıxmışdır: Serpina (Pergolesi "La serva padrona"), Donna Anna, Musetta, Micaela, Gilda, Sophie, Adele (H.Purcell'in "Didona və Eney"), Cathrine (G.Bizet'in "La jolie fille de Perth"), Esmeralda (Smetana'nın "Prodaná nevěsta") və s. 2007-ci ilin payızında Kaoko Amano Vyanada Wiener Kammeroper teatrında Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Telli obrazını yaratmışdır.

Klassik opera ifaçılığı ilə yanaşı ifaçı müasir musiqiyə çox böyük maraq göstərir. Amano bir çox bəstəkarların əsərlərinin ilk ifaçısı olmuş, Wien Modern, Klangspuren kimi müasir musiqi festivallarında çıxışlar etmişdir. İfaçının repertuarına XX əsrin ikinci yarısında yaradılmış çox vacib əsərlər daxildir (G. Aperghis *Recitácions, La nuit en tête*, L. Berio *Sequenza III*, C. Czernowin *Six Miniatures and a simultan Song*, G. Kurtág *Kafka-Fragmente*, G. Ligeti "Mysteries of the macabres", A. Schönberg *Pierrot Lunaire* və s.).

İfaçı kimi Avstriya, Polşa, Macarıstan, Çexiya, İsveçrə, Slovakiya, Rumıniya və Meksikada çıxışlar etmişdir.

**Beatrix Wagner** fleyta ifaçısı kimi təhsilini ilk öncə 1989/96-cı Detmold Konservatoriyasında (prof. Richard Müller-Dombois) almış, sonra Parisdə davam etdirmiş, R. Aitken, R. Dick, C. Levine və I. Matuz'dan ustad dərsləri almışdır. Tələbəlik illərindən müxtəlif orkestrlərdə Herbert Blomstedt, Dmitri Kitayenko, Gunther Schuller və Krzysztof Penderecki kimi dirijorların rəhbərliyi altında çalışmışdır. Bir çox beynəlxalq mükafatlara layiq görülmüşdür. 1996-cı ildən 2001-ci ilədək Beatrix Wagner Detmoldda "Ensemble Horizonte" müasir musiqi ansamblının üzvü olmuşdur. 2001-ci ildən "ensemble reflexion K" müasir musiqi ansamblını yaradır və 2002-ci ildən bu kollektivlə konsert səfərlərinə çıxır. Bu illər ərzində ansambl Avropa, Asiya Şimali və Cənubi Amerika ölkələrində qastrol səfərlərində olur. Kollektiv 2004-cü ildə Azərbaycanda da konsert səfərində olmuşdur.



Beatrix Wagner Ensemble Modern, MusikFabrik NRW, Kammerensemble Neue Musik Berlin, Ensemble Aventure, SurPlus və Insomnio kimi bir çox ünlü müasir musiqi kollektivləri ilə əməkdaşlıq etmişdir. Solo fleyta ifaçısı qismində Köln Filarmoniyası, Concertgebouw Amsterdam, St. Peterburq Filarmoniyası, Seoul Arts Center, Sala Zitarrosa (Urugvay), Centro Cultural Parque de España in Rosario (Argentina) kimi səhnələrdə çıxış etmişdir.

## Festival ifaçıları



**Rauf Abdullayev**
Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını piano (1959) və Leninqrad Dövlət Konservatoriyasını dirijorluq sinfi üzrə (1965) bitirmişdir. 1965-84 illərdə M.F.Axundov ad. Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru, 70-ci illərdə Müasir Musiqi Kamera Orkestrinin və BaKaRa ansamblının yaradıcılarından biri, 1984-cü ildən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru,

1991/94-cü illərdə Ankara Dövlət Opera və Balet Teatrının bədii rəhbəri və baş dirijoru, beynəlxalq əhəmiyyətli musiqi festivallarının və layihələrin iştirakçısı olmuş, bir çox ölkələrdə (Rusiya, Almaniya, Belçika, Hollandiya, İsveçrə, Fransa, Türkiyə və s.) məşhur kollektivlərə dirijorlur etmişdir. Azərbaycan Dövlət Simfonik Orkestri ilə ABŞ, İngiltərə, Fransa, Almaniya, Türkiyə, Misir, Rusiya, İtaliyada qastrol səfərlərində olmuşdur. Xalq artisti, Dövlət mükafatları laureatıdır.



**Roland Freisitzer** Avstriya bəstəkarı və dirijoru, təhsilini 1987-ci ildə Vyana Konservatoriyasında almış, sonra Moskvada 1989/91-ci illərdə A.Schnittke, 1991/93-cü illərdə E.Denisov və A.Terteryan, 1999-cu ildən isə Bakı Musiqi Akademiyasında Fərəc Qarayev ilə məşğul olmuşdur. Magnus Lindberg, Krzysztof Penderecki və Marco Stroppa`dan ustad dərsləri almışdır. R.Freisitzer`in musiqisi bir çox ölkələrdə səslənmişdir. Dirijor kimi fəaliyyətə 1992-ci ildən başlamış, 1994/99-cu illərdə Moskva Orkestri yaratmış və onun bədii rəhbəri olmuşdur. Bundan başqa 1992-ci ildə Moscow Modern Festivalı yaratmış və 1994-cü ilə qədər ona rəhbərlik etmiş, 2002-ci ildə Thomas Heinisch və Alexander Wagendristel ilə Vyanada "Reconsil" ansamblını yaratmışdır. 2001-ci ildən başlayaraq Universal Edition`da naşir kimi fəaliyyətdədir.

Əsərləri: "Evocation Mozart"; Cantus I, Cantus II; "Gecə rəqsləri"; iki Oboe Konserti; Valtorna Konserti, Viola Konserti, "Qızım üçün musiqi", 6 Study on planes; Saksofon kvarteti, Conny's song və s.



**Titus Engel** Zürich və Berlində musiqişünaslıq və fəlsəfə ixtisası üzrə oxumuş, Dresden Konservatoriyasını dirijor ixtisası üzrə bitirmişdir (prof. Christian Kluttig). Tələbə zamanından assistent kimi Sylvain Cambreling, Marc Albrecht, Lothar Zagrosek və Peter Rundel kimi dirijorlarla çalışmış, daha sonra Deutschen Oper Berlin, Opéra de Paris, Teatro Real Madrid, Qərbi Alman Radiosu (WDR) və Bavariya Radiosu, Berner Symphonie Orchester, Zürcher Kammerorchester, Basler Kammerorchester kimi orkestrlər ilə, Ensemble Modern, musikFabrik NRW, Ensemble Recherche, Ensemble Resonanz, Remix Ensemble, KNM Berlin və Collegium Novum Zürich kimi müasir musiqi kollektivləri ilə əməkdaşlıq etmişdir.

Wolfgang Rihm, Benjamin Schweitzer, Olga Neuwirth, Sven-Ingo Koch, Enno Poppe və Klaus Lang kimi məşhur bəstəkarların əsərlərinin ilk ifaçısı olmuş, Avropada bir çox məşhur kollektiv və festivallarda müntəzəm olaraq dəvətli dirijor kimi çıxış edir.



Qara Qarayev IV müasir musiqi festivalı

Festival ifaçıları



**Vladimir Runçak** ukraynalı dirijor və bəstəkar, 4 simfoniya, Rekviem, 3 kamera konserti, xor, kamera və vokal musiqisi əsərlərinin müəllifidir. Dirijor kimi Avropanın bir çox görkəmli kollektivləri ilə əməkdaşlıq etmişdir, 90-cı illərdən etibarən məşhur festivallarda mütəmadi çıxışlar edir, bunlardan London College of Music, Augsburg, Münhen, Paris müasir musiqi festivallarını misal gətirmək olar, Lutoslawski ad. festivalda və St. Petersburqda müəllif konsertləri keçirilmişdir.

2001-ci ilin yayında Vladimir Runçak Azərbaycanın müasir musiqi kollektivi - SoNoR ansamblı ilə Berlindəki məşhur Konzerthaus zalında, "Young.Euro.Classic" Festivalında uğurla çıxış etmişdir. 2007/08 və 2010/11 konsert mövsümlərində dirijor kimi Qara Qarayev adına Dövlət Kamera Orkestri ilə "Zamanla üz-üzə" layihəsi çərçivəsində əməkdaşlıq edir.



**Bernhard Wulff** alman dirijoru və bəstəkarı, dirijorluq, bəstəkarlıq və zərb alətləri üzrə Frayburg, Bazel (İsveçrə) və Sienada (İtaliya) təhsil almışdır. 20 ilə yaxın müddət ərzində bir çox məşhur müasir musiqi kollektivlərini yaratmış və onların bədii rəhbəri olmuşdur: Ensemble Modern (Frankfurt); Arcana (Bazel); Aventure (Frayburg); Zonda (Argentina) və s. Dəvətli dirijor kimi Avropa, Latın Amerikası, MDB ölkələri, ABŞ, Monqolustan və Yaponiyada bir çox orkestrlər və müxtəlif kollektivlər ilə çıxış etmişdir. Bir çox məşhur müasir musiqi festivallarının yaradıcısı və bədii rəhbəri, bunlardan: "2 gün və 2 gecə" Odessa, Ukrayna (1995-ci ildən başlayaraq); "Dırnaqlıların Hayqırtısı" Ulan Bator, Monqolustan (1999-cu ildən başlayaraq); "De Alla y De Aqui", zərb alətləri musiqisi festivalı, Montevideo, Urugvay və Santyaqo de Çili (1999-cu ildən başlayaraq); "İpək Yolu Səsləri" Qırğızıstan (2001), Vyetnamda keçirilən "Qızmar Bambuk" festivalı (Hanoy) və s.



foto Markus Keller

**Ensemble Reconsil** 2002-ci ildə 3 musiqiçi - Roland Freisitzer, Thomas Heinisch və Alexander Wagendristel tərəfindən yaradılmışdır. Müxtəlif ölkələrdən olan müasir dövr bəstəkarlarının çoxsaylı əsərlərinin premyera və yeni interpretasiyada ifası məhz bu ansambla aiddir. "Reconsil" yarandığından çox qısa müddət sonra musiqiçilər üçün vacib əhəmiyyətli olduğunu təsdiqləyə bilmişdir.

"Reconsil"in təklifi ilə müxəlif mədəniyyətləri təmsil edən gənc bəstəkarların məhz bu ansambl üçün yazılmış əsərləri böyük uğur və tamaşaçı kütləsinin rəğbəti ilə qarşılanmışdır. Bu da ansamblın yüksək keyfiyyətli və müxtəlif janrlı olan, Yeni musiqi əsasında qurulmuş maraqlı repertuar üzrə iştirakı qurulmasından irəli gəlir. XX əsr klassiklərinin və Yeni musiqi yaradıcılarının əsərlərinin interpretasiyası arasındakı ritmik və səslənmə fərqliliyi bunu təsdiqləyir.

Ansamblın üzvləri eyni zamanda Vyananın bir çox mühüm orkestr və ansamblarının da ifaçılarıdır. Bu, onların müasir musiqi ilə müxtəlif interpretasiyalarda tanış olmaları üçün böyük bədii əhəmiyyət kəsb edir və təcrübələrinin yetəri dərəcədə artmasına gətirib çıxarır.

## Festival ifaçıları

**Üzeyir Hacibəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri** Azərbaycanın ən zəngin tarixə malik kollektivlerinden biridir. Orkestr 1938-ci ildə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyasi nəzdində yaradılıb (1944-cu ildən bəstəkarın adını daşıyır). İlk dirijoru N.Anosov idi. Uzun illər orkestrin bədii rəhbəri və baş dirijoru Niyazi olmuşdur (fasilələrlə 1984-cu ilə kimi). Azərbaycanda simfonik mədəniyyətin təşəkkülü və inkişafında, Azərbaycan bəstəkarlarının simfonik musiqisinin təbliğində Niyazinin xidmətləri əvəzsizdir. Müxtəlif illərdə orkestrin pultu arxasında L.Ginzburq, O,Muller, K.Eliasberq, Kurt Sanderling, R.Baton, O.Klemperer, K,Zekki, F.Stiedry, N.Qolovanov, K.Kondraşin, G.Aykal, H.Şimşek kimi dirijorlar durmuşlar. Dünya şöhrətli musiqiçilərdən S.Rixter, E.Gilels, D.Oystrax, L.Koqan, L.Oborin, V.Klibern və başqalarının orkestrlə çıxışları əlamətdar hadisədir. Son 10 il ərzində kollektivin M.Rostropoviç ilə əməkdaşlığını da səmərəli adlandırmaq olar. Orkestrin həyatında yeni mərhələ Rauf Abdullayevin adı ilə bağlıdır. O, 1984-cü ildən kollektivin bədii rəhbəri və baş dirijorudur. Maestro R.Abdullayevin rəhbərliyi altında orkestr ilk dəfə İsveçrə və Misir (1990),Türkiyə (1991), Almaniya (1993), Böyük Britaniya və ABŞ (1999), Fransa (2000), İtaliyada (2007) qastrol səfərlərində olmuşdur. Orkestrin "tərcümeyi-halının" ən önəmli səhifələrinə onun Q.Qarayev adına "XX əsr musiqisi" festivallarında (1986,1988,1990), habelə Bakıda D.Şostakoviçin 100 illik yubileyinə həsr olunmuş festivalda (2006) və Beynəlxalq Rostropoviç festivallarında (2007/10) çıxışlarını aid etmək olar.



**Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri** 1964-cü ildə Azərbaycan musiqisinin klassikləri Qara Qarayev və Fikrət Əmirovun təşəbbüsü ilə yaradılıb. Orkestrin ilk baş dirijoru və bədii rəhbəri Respublikanın xalq artisti, dövlət mükafatları laureatı Nazim Rzayev olmuşdur. Kollektiv 40 ildən yuxarı fəaliyyəti zamanı dünyanın bir çox məşhur səhnələrində, nüfuzlu beynəlxalq festivallarda iştirak edib. 1998-ci ildən orkestrə Respublikanın xalq artisti Teymur Göyçayev rəhbərlik edir. Kollektiv müxtəlif illərdə Böyük Britaniya, Fransa, Türkiyə, Rusiya və başqa ölkələrdə Azərbaycan musiqi sənətini layiqli təmsil edib. Orkestrin repertuarına qərbi Avropa, rus və Azərbaycan bəstəkarlarının əsərləri daxildir.





**Ensemble Ascolta** 2003-cü ildə Ştuttqartda 7 musiqiçi tərəfindən yaradılıb, o zamandan kollektivin əsas instrumental tərkibi mis nəfəslilər və zərb alətləri olmuşdur. Yarandığı zamandan müasir musiqini təbliğ edən kollektiv üçün müxtəlif bəstəkarlar tərəfindən 80-dən çox yeni əsər yazılmış, bunların arasında Beat Furrer, Pei-Yu Shi və Rolf Riehm kimi isimlər də vardır.

Ascolta Avropada bir çox müasir musiqi festivallarında iştirak etmiş, bunların sırasında Huddersfield Festival, Darmstädter Ferienkursen für Neue Musik, Donaueschinger Musiktagen, Berliner Festspielen/„Märzmusik“, Salzburg Biennale və Wien Modern kimi festivallar daxildir. Kollektivin proqramı müxtəlif konsepsiyalarla kifayət qədər zəngindir - bunların sırasında klassik musiqinin instrumental işlənməsinin ifasından başlayaraq müasir musiqi ilə rokun sintezi, səssiz filmlərə yazılmış yeni musiqi və s. var.





## Festival ifaçıları



**Con tempo Ansamblı** 2005-ci ildə Bakıda müasir musiqi kollektivi kimi yaradılmışdır, başlıca məqsədi Azərbaycan bəstəkarlarının yeni əsərlərini ilk ifası və onları xaricdə tanıtdırmaqdır. 30-dan çox yeni əsər məhz "Con tempo" üçün yazılmışdır. Kollektiv Almaniya, Türkiyə və Gürcüstanda keçirilən beynəlxalq festivallarda çıxış etmişdir.

Kollektiv Azərbaycanda bir neçə maraqlı layihənin təşəbbüskarıdır. Bununla yanaşı ansambl Bəstəkarlar İttifaqının keçirdiyi baxış-müsabiqəsi, plenumlar, yubiley konsertləri, qurultaylarda mütəmadi konsert proqramları ilə çıxış edir. Fəxrəddin Kərimov, Cavanşir Cəfərov, Əyyub Quliyev, Roland Freisitzer kimi dirijorlar ansambl ilə əməkdaşlıq etmişlər.

Ansamblın repertuarına əsasən müasir dövrün xarici və Azərbaycan bəstəkarlarının əsərləri daxildir. Kollektivin bədii rəhbəri Nizami Zeynalovdur.

**Freiburg Percussion Ensemble** 1973-cü ildə prof. Bernhard Wulff tərəfindən məhz zərb alətləri kollektivi kimi yaradılmışdır.

Ansamblıda üzvlük çox mütəhərrikdir, bu illər ərzində bu kollektivdə bir çox musiqiçilər yetişmiş, ansambl üçün bir çox bəstəkarlar bu tərkibə uyğun əsərlər yaratmışlar (ənənvi olaraq 4 zərb alətləri ifaçısı üçün).




Müstəsna ifa səviyyəsi və maraqlı bədii konsepsiyaları kollektivə dünya şöhrəti gətirmiş, ansambl uzun illər ərzində ABŞ, Yaponiya, Çin, Vietnam, Laos, Kamboca, Indonesia, Korea, Argentina, Çili, Brasilia, Urugvay, Monqolustan, Qırğızıstan, Polşa, Ukrayna, Rusiya, Avstriya, İsveçrə, Fransa, İtaliya, Hollandiya, Böyük Britaniya kimi ölkələrdə, müxtəlif festivallarda çıxışlar etmişdir. Ansambl ifaçıları bir çox mükafatlara layiq görülmüşlər.

## Festivalın açılışı

2 aprel 2011, saat 19.00

Azərbaycan Dövlət Filarmoniysı

I hissə

**Anton von Webern** (1883-1945) — **Passacaglia** op.1, d-moll (1910)

**Arif Məlikov** (*1933) — **Simfoniya №4** (1977)

II hissə

**Olivier Messiaen** (1908-1992) — **Oiseaux exotiques** (Ekzotik quşlar, 1955)

**Vladimir Tarnopolski** (*1955) — **...deyə bilmədiyi sözlərin küləyi** (1996)

**Witold Lutosławski** (1913-1994) — **Orkestr üçün Kitab** (1968)

**Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri**

bədii rəhbər və baş dirijor **Rauf Abdullayev**

solistlər **Nino Jvania** / piano (Gürcüstan)

**Aleksandr İvaşkin** / violonçel (Böyük Britaniya)



Olivier Messiaen







**Anton von Webern** (1883-1945) Avstriya bəstəkarı və dirijoru, *Yeni Vyana Məktəbinin* üzvü, həyatının ilk illərini Vyanada, sonra Graz və Klagenfurtda keçirmişdir. Vyanaya Guido Adler'in rəhbərliyi altında musiqi nəzəriyyəsini öyrənməyə gəlmişdir. 1904/08-ci illərdə o, Arnold Schönberg ilə görüşür və onun sinfində təhsil alır, bu da onun şəxsiyyətinin və yaradıcılığının formalaşmasına müstəsna təsir edir. Schönberg'in sinfində Berg və başqa bəstəkrlar ilə tanış olur.

1908-ci ildən etibarən Webern opera və simfonik orkestr dirijoru qismində Avstriya və Almaniyada çalışır, 1915-ci ildə Avstriya ordusuna çağırılır, lakin gözlərinin zəif olduğuna görə növbəti ildə ordudan azad olunur. 1917/18-ci il mövsümünü o, Praqada keçirir, 1920-ci ildə Deutsches Landestheater orkestrinin rəhbəri vəzifəsinə dəvət olunur. 1923-cü ildən fəhlə xor assosiasiyasının iştirakçıları ilə məşğul olur. Bu xor onun rəhbərliyi altında klassik repertuar, həmçinin Mahler və Schönberg'in əsərlərini ifa edir. İki dəfə - 1924 və 1932-ci ildə o, Vyana musiqi ödülünü alır. Bu dövr ərzində xaricə bir neçə dəfə səfər edir (Almaniya, İsveçrə, İngiltərə) və burada öz əsərlərinə dirijorluq edir. 1928/38-ci illərdə Avstirya Radiosunda dirijor kimi işləmiş, nasist rejimi zamanında vəzifəsindən kənarlaşdırılmışdır. Nasist rejimi Avstriyanın mədəni həyatını pozduğundan Webern üçün çox çətin olur; o, tam təcrid olunur, çünki Berg 1935-ci ildə vəfat edir, Schönberg isə irqi təqiblərə görə Avstriyadan mühacirət edir. Nasizmin "kulturbolşevizmlə" mübarizəsi, "degenerativ" musiqi təbliğatçılarının daimi təqiblərə məruz qalması, alçaldılması, onun professional fəaliyyətinə mənfi təsir göstərirdi. Bəstəkarın həyatı 1945-ci ildə faciəli surətdə sona yetmişdir.

Webern'in ilk əsərlərində postromantik ənənələrlə sıx əlaqə, xüsusilə, bütün həyatı boyu xatirində yaşatdığı G.Mahler irsinə bağlılıq parlaq şəkildə ifadə olunur. Bu baxımdan bəstəkarın digər əsərləri ilə tanış hər bir dinləyicini təəccübləndirə biləcək üslubda yazılmış *Passacaglia*, op.1, d-moll, əsərini misal kimi göstərmək olar. Genişlənmiş tonallığın, 1890/1900-cü illər dövrü Vyanasında dərk edilən tərzdə yazılmış bu əsər, müxtəlif aspektlərdə ifadə oluna bilən estetikanın təsiri altında yazılmışdır. Lakin buna baxmayaraq Webern'in musiqisindən bu estetikanın tamamilə yox olması üçün çox az zaman gərək olacaqdı.

Bununla bərabər, iddia etmək olar ki, *Passacaglia*'nın forma quruluşu tətbiqində bəstəkarın ciddi üsluba, hətta musiqi yazılışının sxolastik formalarına bağlılığı tendensiyası nəzərə çarpır. Eyni zamanda qeyd etmək olar ki, Passacaglia'nın ardınca yazılan və "Entflient auf leichten Kühnen" ("Kiçik barjlarda üzərək gedin"), op.2, a capella xorunda, Webern, əsərin struktur quruluşunda kanonu əsas prinsip kimi götürür: burada tonal-harmonik aləm ilə bağlı və onunla birmənalı nisbətdə olan intervallardan istifadə olunmasına rəğmən, bu kanon ciddi tonallıq münasibətləri əsasında formalaşmayan yeni dünyanın meydana gəldiyindən xəbər verir.

Webern'in indi tanınan və dərk olunan üslubu, iki silsilə op.3 və op.4 ilə başlanır. Hər iki əsər Stefan George'un (şairin mətni artıq op.2-də istifadə olunub) şerlərinə əsaslanır və bəstəkarın həmin dövrdəki ədəbi meylindən xəbər verir. Amma op.5-dən başlayaraq Webern dühası həm radikalizm nöqteyi-nəzərindən, həm də musiqi hissiyyatının yeniliyi baxımından müstəsna hadisəyə çevrilir - indiyədək bizi heyrətləndirməkdə davam edən əsərin seriyalarının nadir xəlitəsi bunu təsdiq edir. Bu qrup özündə "Simli kvartet üçün 5 pyes", op.5, "Orkestr üçün 6 pyes", op.6 və "Forteiano və kaman üçün pyeslər"i, op.7 birləşdirir. Bu əsərlərdə bəstəkarın "kiçik formalara" rəğbəti duyulur - burada yığcam formadan deyil, son dərəcə təmərküzləşmiş, öz poetikası və ifadə vasiələrinin zənginliyi baxımından davamiyyətli işlənmə ehtiyacı duyulmayan formadan danışmaq olar.

Qərb musiqi təfəkkürünün radikal yenilikçisi kimi Webern'in novatorluğu ondan ibarətdir ki, bəstəkar hər bir fenomeni həm müstəqil, həm də bir-birindən asılı münasibətə nəzərdən keçirir. Bu cəhəti xüsusilə qeyd etmək üçün Webern təkcə konkret səsin yerləşdiyi registrə deyil, həm də əsərin inkişafı zamanı səsin payına düşən vaxt məvhumuna da böyük əhəmiyyət verir. Bilavasitə kontekstlə yüklənmiş səsdən daha çox səssizliklə əhatələnmiş səs daha ifadəli olur: elə buna görə də səssizlik sferasında Webern'in yenilikçiliyi - onu xüsusilə məşğul etməyən ritmik fenomen dairəsindən daha çox morfoloji yüksəkliklərin və birləşmələrin aparılmasında özünü göstərir. O öz dispozisiyalarını həm zaman, həm məkan, həm də instrumental kontekstdə yüngülləşdirir. O, orkestrləşməyə həqiqi struktural funksiya vermək üçün, koloritdən qedonistik nöqteyi-nəzərdən istifadə etdiyi ilk əsərlərinin cazibəsindən imtina edir.

Yaşadığı dövrdə tanınmamasna baxmayaraq, vəfatından sonra Webern bütöv bir nəslin əql və zəkasının hakiminə çevrilmişdir. Hal-hazırda və gələcəkdə də biz onu bütün dövrlərin görkəmli bəstəkarı hesab edə bilərik, onun ismi daima tarixdə qalacaqdır.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



**Arif Məlikov** (*1933) Azərbaycan Dövlət Konservatoriyasını 1958-ci ildə prof. Qara Qarayevin sinfi üzrə bitirib. Həmin ildən ADK-nın (BMA) bəstəkarlıq kafedrasında dərs deyir, 1982-ci ildən indiyədək kafedra müdiridir, Azərbaycanın xalq artisti (1978), Respublika Dövlət Mükafatı laureatı (1986), SSRİ xalq artistidir (1986). O, XI çağırış SSRİ Ali Sovetinin (1986) deputatı, SSRİ xalq deputatı (1989) olmuşdur. 1998-ci ildə "İstiqlal" ordeni ilə təltif edilib. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. Müxtəlif ölkələrin orden və medalları ilə təltif olunub.
A.Məlikovun əsərləri dünyanın ən müxtəlif guşələrində – Avropa, Asiya, Cənubi Amerika ölkələrində, ABŞ, Yaponiyada səslənmişdir. Bəstəkarın əsərlərinin təfsirçiləri arasında Niyazi, R.Abdullayev, Ç.Hacıbəyov, K.Abdullayev (Azərbaycan), L.Ginzburq, G.Rojdestvenski, V.Fedoseyev, V.Gergiyev, M.Şostakoviç, V.Sinayski, A.Jüraytis, A.Korneyev, V.Aqafonov (Rusiya), G.Aykal (Türkiyə), B.Maderna (İtaliya), V.Qnedaş, F.Qluşşenko (Ukrayna), K.Tenştedt (Almaniya), T.Proşev (Yuqoslaviya) kimi dirijorlar qeyd olunmalıdır. Bir sıra əsərlərini A.Məlikov özü bir dirijor kimi idarə edib.
Əsas əsərləri: baletlər – "Məhəbbət əfsanəsi", "İki nəfər", "İki qəlbin dastanı"; "Dalğalar" operettası; 8 simfoniya; "Nağıl", "Füzulinin xatirəsinə ithaf", "Metamorfozlar" simfonik poemaları, "Qəhrəmani poema"; "Torpağın səsi" kantatası; vokal-simfonik poemalar: "Vətən", "Yaddaş", "Axırıncı aşırım"; N.Hikmətin şeirlərinə 3 vokal silsilə, solo violin üçün sonata, "Aniliklər" silsiləsi; kinofilmlərə musiqi, mahnılar və s.

Simli okrestr üçün bir hissəli ***Dördüncü simfoniya*** (1977) maraqlı konsepsiyaya malik, 12 tonlu texnikadan istifadə edilərək və dəqiq düşünülmüş arxitektonikası ilə seçilən əsərdir. Simfoniya dəfələrlə Bakı, Moskva, Sankt-Peterburq, və bir çox beynəlxalq festivallarda ifa olunub.

**Olivier Messiaen** (1908-1992) fransız bəstərakı, organisti, ornitologu və musiqişünası, XX əsr musiqisində çox mühüm bir fiqur. Paris Konservatoriyasını fortepiano, orqan, bəstəkarlıq (Paul Dukas'ın sinfi) və musiqi tarixi ixtisası üzrə bitirmişdir. 1936/39-cu illərdə Parisdə 'École normale musiqi məktəbində dərs deyir, Andre Jolivet və bir neçə başqa gənc həmkarı ilə bərabər neoklassisizm, dodekafoniya və folklorizm yollarından imtina prinsiplərinə əsaslanan "Gənc Fransa" bəstəkarlar qrupunu təşkil edir. 1939-cu ildə başlamış İkinci Dünya müharibəsinə gedir və bir ildən sonra əsir düşür. Əsir düşərgəsində bəstəkarın məşhur əsəri - "Zamanın sonuna Kvartet" - yaranır. 1942-ci ildən Paris konservatoriyasında dərs demişdir. Onun tələbələri qismində P.Boulez, İ.Xenakis, K.Stockhausen kimi isimləri sadalamaq olar.
Müharibə illərindən sonra Messiaen bəstəkar kimi geniş şöhrət qazanır, orqan ifaçısı və pianoçu kimi çıxışlar edir, musiqi nəzəriyyəsinə aid əsərlər yazır, müxtəlif ölkələrdə mühazirələrlə çıxış edir. "Mənim musiqi dilimin estetikası", "Ritm haqqında traktat" kimi nəzəri əsərlərində özünün yeni bəstəkarlıq prinsiplərindən söz açır. "Müqəddəs Fransisk" operası, *Turangalila* simfoniyası kimi monumental əsərlərin müəllifidir. Bir çox əsərlərində ilk dəfə olaraq Marteno dalğaları adlı, sintezatorun analoqu olan alətdən istifadə edir. Bir çox mükafatlara layiq görülmüş, həmçinin orqanist kimi də fəaliyyət göstərmişdir. O 60 ilə yaxın müddətdə kilsədə orqan ifaçısı kimi çalışmışdı.
Messiaen fransız musiqisinin ziddiyyətli fiqurlarından biridir. Simvolizm estetikası onun yaradıcılığına böyük təsir etmiş, yaradıcılığının ilham mənbəyi fransız bəstəkarlarının yaradıcılığı ilə yanaşı, qriqorian xoralı, rus mahnıları, ənənəli Şərq (xüsusilə, Hindistan) musiqisi və hətta quşların oxumasında olmuşdur.
Əsərləri: "Turangalila" simfoniyası, "Müqəddəs Fransisk" operası, Orkestr üçün "Xronoxromiya"; Fortepiano üçün "Yeddi hayku", 4 ritmik etüd, "Jeanne d'Arc" oratoriyası, "Suların bayramı", "3 kiçik liturgiya", "Quşların oyanması", "Ekzotik quşlar", "Kiçik İsaya 20 baxış", "Yer və göy mahnıları", klarnet, fortepiano, violin və violonçel üçün "Zamanın sonuna Kvartet", Orqan albomu və s.

***Oiseaux exotiques*** (Ekzotik quşlar, 1955) Bəstəkar, eyni zamanda ornitoloq olana O.Messiaen yazırdı: *"Ümidsizlik anlarında, istənilən musiqi səsinin mənə mənasız gəldiyi vaxtlarda öz mövcudluğumun əbəsliyini daha aydın dərk edirəm..., unudulmuş musiqinin əsl varlığınının meşələrdə, çöllərdə, dağlar və dəniz sahillərindəki quşların oxumasında olduğunu yada salıram. Zövq almaq üçün mövcud olan, günəşin zühurunu qarşılamaq, sevgilini valeh etmək, yorğunluğu unutmaq - günün bitdiyi, axşamın düşdüyü həyat anı ilə vidalaşmaq üçün mövcud musiqi mənimçün məhz təbii musiqidir... "*.
Quşlar haqda elmin mahir bilicisi və bütün həyatı boyu onların oxumasını araşdıran Messiaen instrumental musiqi vasitələri ilə bu qeyri-müntəzəm ölçülü, unikal melodik quruluşlu, təkrarolunmaz aqoqik çalarlı və rəngarəng tembrli səslənmələrin dəqiq imitasiyasına nail olmağa çalışmışdır.
Solo piano və kiçik orkestr üçün yazılmış "Ekzotik quşlar" əsərində Messiaen bütün dünyadan – Çin, Malayziya, Şimali və Cənubi Amerika, Hindistandan olan quşların səslərini toplamış və sevimli sahələri – quşların oxuması ilə ekzotikanı sanki bir-birinə "toxumuşdur".





**Vladimir Tarnopolski** (*1955) Moksva Konservatoriyasında (bəstəkarlıq N.Sidelnikov, alətləşünaslıq E.Denisov, nəzəriyyə Y.Xolopov) təhsil almış, 1980-cı ildə aspiranturanı bitirərkən yazdığı Violonçel konserti G.Rojdestvenski tərəfindən "Sovet musiqisi tarixindən" konsertlər silsiləsinə daxil edilmişdir. Sonralar həmin dirijorun sifarişi ilə bir neçə əsər, o cümlədən "Üç Qrasiya" opera-parodiyasını yazmışdır. 90-cı illərdə sonoristik və elektron musiqiyə müraciət edən bəstəkar Kurt Schwitters'in dadaistik mətni əsasında deklamasiya və orkestr üçün "Ağlını itirmiş dünya" əsərini, M.Rostropoviçin sifarişi ilə Fransada rus musiqi festivalı üçün "Ah, bu ruslar" ironik operettasını yazır. Onun ən irihəcmli əsəri München-biennale 1999 ildə müasir musiqi teatr Festivalının sifarişi ilə yazdığı "Zaman sahillərindən çıxdığı an" ("Wenn die Zeit auf die Ufer trit") operasıdır.




Bəstəkarın əsərləri Avropa, ABŞ, Rusiya, Fransa, Almaniya, Hollandiyanın bir çox beynəlxalq müasir musiqi festivallarında, o cümlədən konsert repertuarlarında G.Rojdestvenski, M.Rostropoviç, A.Lazarev, V.Sinayskiy, V.Gergiyev kimi dirijorlar, Ensemble Modern, Ensemble InterContemporain, Schoenberg Ensemble, Ensemble Recherche və kimi musiqi kollektivlərinin ifasında səslənir.

Tarnopolski 1989-cu ildə Müasir Musiqi Assosiasiyasının yaradıcılarından biri olmuş, 1993-cü ildə onun təklifi əsasında solistlər ansamblı "Yeni musiqi studiyası", Moskva Konservatoriyasının "Müasir musiqi mərkəzi" yaradılmışdır. 1994-cü ildə həyata keçirdiyi hərillik "Moskva Forumu" beynəlxalq avanqard musiqi festivalı həm Rusiya, həm də xaricdə geniş tanıtım qazanmışdır. 1992-ci ildən Moskva konservatoriyasında dərs deyərək mütəmadi olaraq Avropa və ABŞ-da leksiya və ustad dərsləri ilə çıxış edir.
Əsərləri: K.M.Veberin librettosu əsasında "Üç Qrasiya" opera-parodiyası, D.Şostakoviçin xatirəsinə musiqi, violin, xor və orqan üçün Məzmur, zərblilər və ansambl üçün protestant Xoral prelüdü, fortepiano üçün Eindruck-Ausdruck, klarnet, violonçel və royal üçün "Keçmiş günün əks-sədası", triosu, ansambl üçün Kassandra, ansambl, bas və unison bas xoru üçün "Döyüşdən sonrakı peyzaj", soprano və kamera ansabmlı üçün "Real həyatdan səhnələr", "Tükənmiş zamanın nəfəsi" simfonik pyesi və s.

***...deyə bilmədiyi sözlərin küləyi*** (1996) Əsərin ismi ünlü fransız şairi, simvolist Stephane Mallarme'nin poeziyasından götürülmüş və dünyadan vaxtsız köçmüş görkəmli musiqiçi, violin ifaçısı Oleq Kaqana həsr edilmişdir. Bu ithaf, alətlərin seçimində də özünü göstərmişdir, belə ki, partiturda violin ümumiyyətlə yoxdur. Solo kimi çıxış edən violonçel isə musiqiçinin dul xanımı Natalia Gutman üçün nəzərdə tutulmuşdu. Forma cəhətdən qeyri-dəqiq olan bu əsərdə müəllif, heç bir alət və ya tembrin dominant rol oynamadığı pauzasız seksiyaların musiqini dalğavari təşkili kimi ifadə edir. Əsər "Varşava payızı" festivalı tərəfindən sifariş edilmişdir.



**Witold Lutosławski** (1913-1994) ünlü Polşa bəstəkarı və dirijoru, Varşava Konservatoriyasını (V.Malishevsky`nin sinfi) bitirmişdir. İ.Stravinski və K.Szymanowski`nin yaradıcılığı onun formalaşmasına böyük təsir göstərmişdir. Simli kvartetinin Stokholmda səslənməsindən (1959) və 1965 ildə UNESCO mükafatından sonra beynəlxalq səviyyədə tanınmışdır. Tonal sistemdən imtina edərək qısa müddət ərzində dodekafoniyaya müraciət etmişdir. Yaradıcılığının yeni dövrü - nəzarətli aleatorika metodu keçən əsrin 50/60-cı illərinə təsadüf edir. Əsərləri görkəmli musiqiçilər - M.Rostropoviç, H.Holliger, D.Fischer-Dieskau, A.Mutter, D. Upshaw, Esa-Pekka Salonen və s. tərəfindən ifa olunmuşdur. Sonninq və Gerder (1967), E.Simens (1983), Kioto (1993) mükafatları, Böyük Britaniya Kral filarmonik cəmiyyətinin qızıl medalını (1987) almış, bir çox universitetlərin fəxri doktoru, müxtəlif müsabiqələrdə münsiflər heyətinin üzvü olmuşdur. Məqalələri mütəmadi olaraq Polşa mətbuatında nəşr edilmişdir.
Əsərləri: 4 simfoniya, orkestr üçün Konsert, kamera orkestri üçün Kiçik süita, "Silezia triptixi", Simli kvartet, Bartokun xatirəsinə "Matəm musiqisi", "Venesiya oyunları", Orkestr üçün Kitab, Violonçel və orkestr üçün Konsert, orkestr üçün "Noveletta", H. Michaux, R.Desnos və s. sözlərinə vokal əsərləri.

***Orkestr üçün Kitab*** ("Livre pour orchestre", 1968) məhdud aleatorika texnikasının istifadəsi ilə yazılmış ən maraqlı əsərlərdən biridir, burada Lutosławski yaradıcılığına xas "şaquli" təfəkkür prinsipi saxlanılıb. Üç *chapitres* ("fəsil") və iki qısa *interludio* əsərin materialını təşkil edir. Hər fəsildə müxtəlif tembr kombinasiyalarına rast gəlinir. Lutosławski üçün şübhəsiz ki, yeni yaradıcılıq mərhələsi sayıla biləcək bu əsər bəstəkarın öz sözlərinə görə *"ilk planda rəngarəng səs kompleksləri ilə manipulyasiyadır"*.

# Luzifers Traum

3 aprel 2011, saat 16.00

Rüstəm Mustafayev adına Dövlət İncəsənət Muzeyi

**Karlheinz Stockhausen** (1928-2007) **Klavierstück XIII** (1981)

**Nino Jvania** / piano (Gürcüstan)



Karlheinz Stockhausen





**Karlheinz Stockhausen** (1928-2007) – alman bəstəkarı, dirijoru və musiqi nəzəriyyəçisi, müasir dövr incəsənətinin novatorlarından biri, 360-dan çox əsərin müəllifidir. O, elektron, serial və aleatorik musiqi sahəsində yeni ifadə vasitələri tapmışdır. Bəstəkarın ideyalarından biri-musiqini "nöqtəvi" şəkildə qəbul etmək, ümumi dramaturgiyadan deyil, əsərin hər bir anından zövq almaqdır. Bir çox əsərlərində aleatorikadan istifadə olunub.

O, ilk musiqi təhsilini Kölndə, sonralar Parisdə Olivier Messiaen və Bonn Universitetində Werner Meyer-Eppler`dən almış, sonralar Pierre Schaeffer`in "musique concrete" studiyasında çalışmışdır. Darmstadt məktəbinin aparıcı mütəxəssislərindən olan Stockhausenin bəstələri və nəzəri fikirləri təkcə akademik musiqi deyil, həmçinin jazz və pop musiqi ilə məşğul olan musiqiçilərə də təsir edir. İlk notlaşdırılmış və ifa edilmiş elektron musiqi əsərinin müəllifidir. 1960-cı illərdə, o, serial musiqi sahəsinin liderlərindən birinə çevrilmiş, eyni zamanda Amerikada yaranmış "təsadüfi" – aleatorik musiqini qəbul etmiş ilk Avropa bəstəkarlarındandır.



Nino Jvania K.Stockhausen ilə birgə

Onun musiqi nəzəriyyəsinə aid bir çox esseləri "Die Reihe" alman jurnalında çap olunmuş, bir müddət həmin jurnalın redaktoru olmuşdur. 1963-cü ildə Kölndə "Yeni musiqi kursları"nın əsasını qoymuş və 1968-ci ilə qədər bədii rəhbəri olmuşdur. 1969-cu ildə ancaq bəstəkarın əsərlərinin, disk və kitablarının çapı ilə məşğul olan Stockhausen Verlag – şəxsi nəşriyyatını yaratmışdır.

40 ildən çox müddət ərzində Darmşdat Beynəlxalq Yeni musiqi yaz kurslarının fəal iştirakçısı olmuşdur. 1998-ci ildən etibarən hər ilin yayında Kürtendə K. Stockhausen musiqisinin interpretasiyası və bəstəkarlıq üzrə Beynəlxalq kurslar keçirilmiş və bəstəkarın vəfatından sonra da keçiriməkdədir. Şəhər meydanlardan birinə onun adı verilmişdir.
Əsərləri: ansambl üçün – Kreuzspiel, Kontra-Punkte, "Elektron etüdlər I, II", Mikrofoniya – I, II, Telemusik (yapon musiqisindən götürülmüş sitatlar əsasında), Himnlər, "Zaman ölçüsü (Zeitmaße)", Gənclik mahnısı (Gesang der Jünglinge), Kontakte, Momente, Prozession, "Aus den sieben Tagen", Mantra,"Bürclər (Tierkreis)", "Səs. Günün 24 saatı (Klang)", Klavierstücke fortepiano pyesləri, Orkestr üçün Punkte, Gruppen (3 tərkib), Carre (4 tərkib), "Mixtur" (5 tərkib), "Trans" , "İnori", 7 operadan ibarət silsilə - "Licht. Die sieben Tage der Woche" (İşıq. Həftənin yeddi günü) və s.



Klavierstücke XIII ifa edilən zaman

Solo piano üçün ***"Lucifer`in röyası və ya Klavierstück XIII"*** (1981) ilk olaraq bas və piano üçün yazılmışdı. 35 dəqiqə ərzində səslənən Klavierstück "Həftənin 7 günü, İŞIQ" (LICHT, Die sieben Tage der Woche) heptalogiyasından ŞƏNBƏ operasının I səhnəsidir. Lucifer obrazını əks etdirən bas - teatral funksiya daşıyır - səhnədə yerləşdirilən kürsüdə əyləşmiş vəziyyətdə yuxu görür. Əsas rol isə pianoçuya aiddir ki, Lucifer`in röyasına girərək onu cəlb etməyə çalışır. *"Sona yaxın heyran olmuş Lucifer sadə melodiya eşidir –onu özündən uzaqlaşdırır – həzz alır – yenidən uzaqlaşır – yenidən özünü məftun etməyə imkan verir və sonda ölür."* (K.Stockhausen)

Sonralar əsərin solo variantı yaranır, burada pianoçu müəyyən mənada Lucifer`in rolunu öz üzərinə götürür. Bu rolu hər hansı bir tamaşaçı da kürsüdə əyləşib sanki röyasına məhz bu əsər gəlibmiş kimi oynaya bilər.

## Euonymus 2/11/08

3 aprel 2011, saat 19.00

Dövlət Kamera və Orqan Musiqisi Zalı

I hissə

**Alexander Wagendristel** (*1965) — **Dioscuri** (2011)

**Alban Berg** (1885-1935) — **7 frühe Lieder für Sopran und Ensemble** (1905/08)
1.Nacht
2.Schilflied
3.Die Nachtigall
4.Traumgekrönt
5.Im Zimmer
6.Liebesode
7.Sommertage

**Julia Purgina** (*1980) — **Euonymus 2/11/08** (2009/10)
*tenor saksofon və ansambl üçün*

II hissə

**Gerard Grisey** (1946-1998) — **Périodes** (1974)

**Manuela Kerer** (*1980) — **Plas** (2009)
*violin və ansambl üçün Konsert*

**György Ligeti** (1923-2006) — **Kamera konserti** (1969/70)
I. Corrente
II. Calmo, sostenuto
III. Movimento preciso e meccanico
IV. Presto

**Ensemble Reconsil Wien** (Avstriya)

solistlər **Fərıdə Məmmədova** / soprano
**Thomas Schön** / saksafon
**Bojidara Kouzmanova** / violin

dirijor **Roland Freisitzer**



Gérard Grisey





foto Maria Frodl

**Alexander Wagendristel** (*1965) – Avstriya bəstəkarı və fleyta ifaçısı, Vyana Musiqi Universitetində fleyta üzrə Werner Tripp, bəstəkarlıq üzrə Friedrich Neumann, Heinrich Gattermeyer və Erich Urbanner ilə məşğul olmuşdur. 1987-ci ildən "Vereinigte Bühnen Wien" orkestrində çalışır.

Əsərləri bir neçə beynəlxalq müsabiqələrdə, həmçinin Avstriya Mədəniyyət Nazirliyi, Vyana şəhəri, Theodor Körner Fondu və s. mükafatlara layiq görülmüşdür.

"Der Narr" operası 1995-ci ildə Schönbrunn Palace teatrında, piano konserti „TYPHON" 2002-ci ildə Wiener Konzerthaus`da, 2007-ci ildə Honkonqda keçirilən Dünya Musiqi Festivalında (ISCM) səsləndirilmişdir. 2010-cu ildə Şanxayda keçirilən EXPO 2010 Avstriya pavilyonu üçün əsər sifarişi almışdır. Əsərəri bir çox ölkələrdə - Almaniya, İsveçrə, Çexiya, Macarıstan, Makedoniya, İtaliya, Rusiya, Azərbaycan, Misir, ABŞ və s. - keçirilən festivallarda səsləndirilmişdir.

2003-cü ildə Roland Freisitzer və Thomas Heinisch ilə birgə "Reconsil" ansamblını yaratmışdır. Bu ansambl yeni musiqinin ifasını qarşısına məqsəd qoyaraq 100-dən artıq əsərin premyerasını keçirmişdir.

***Dioscuri*** (2011) kamera konsertidir, əsər 2 ansamblın ifası üçün yazılmış və "cori spezzati" texnikasının istifadəsi ilə ifa olunur. Əsərin adı yunan mifologiyasına əsaslanaraq qeyri-oxşar əkizlər Castor və Pollux mənasındadır. Dioscuri`nin forması iki müxtəlif xarakterli, lakin bir-biri ilə sıx bağlı olan fərdlərdən qaynaqlanır. 1-ci ansambl asta tempdən başlayaraq tezləşməyə doğru getdiyi halda, 2-ci ansamblda əks prinsip əsas təşkil edir. Hissələrin hər birində ansamblın istənilən alətinin solo funksiyası vardır.

Əsər *Fərəc Qarayevə* həsr olunub.

**Alban Berg**'in ***7 frühe Lieder für Sopran und Ensemble*** (Soprano və ansambl üçün 7 erkən mahnı, 1905-08) bəstəkarın erkən əsələrindən biridir, onun hələ Arnold Schönberg ilə məşğul olduğu zamanlarda və şübhəsiz ki, onun təsiri altında yazılmışdır. Bundan başqa bu əsərdə Gustav Mahler və Hugo Wolf, habelə Claude Debussy və hətta Richard Wagner təsiri də vardır. Əsər öncə soprano və piano üçün yazılsa da, sonradan, 1928-ci ildə bəstəkar tərəfindən orkestrləşdirilmişdir (festivalda ifa edilən ansaml üçün versiyası - Roland Freisitzer) Əsərdəki hər mahnının mətni müxtəlif şairlərindir.




1.Nacht (*Gecə*) - mətn Carl Hauptmann
2.Schilflied (*Qamışlıq mahnısı*) - mətn Nikolaus Lenau
3.Die Nachtigall (*Bülbül*) - mətn Theodor Storm
4.Traumgekrönt (*Xəyali taclanma*) - mətn Rainer Maria Rilke
5.Im Zimmer (*Otaqda*) - mətn Johanes Schlaf
6.Liebesode (*Həyat odası*) - mətn Otto Erich Hartleben
7.Sommertage (*Yay günləri*) - mətn Paul Hohenberg



**Julia Purgina** (*1980) bəstəkar və viola ifaçısı. Vyanada viola üzrə prof. Klos və Berlində prof. Knörzer ilə, bəstəkarlıq üzrə Vyanada prof. Urbanner və prof. Czernowin ilə məşğul olmuş, təhsilini fərqlənmə ilə bitirmişdir. Hal-hazırda prof. Eybl`ın rəhbərliyi ilə aleatorika mövzusunda doktorluq dissertasiyası üzərində çalışır.

Bir çox mükafat və təqaüdlərə layiq görülmüşdür: Theodor-Körner-Preis, Gustav-Mahler-Jugendorchester Stipendium, Viktor-Fohn Stipendium, Antonio-Salieri-Kompositionspreis, Youngsters of Art, Startstipendium (2009). 1999 -2004-cü illər ərzində Avropa Gənclər İttifaqı orkestri və G.Mahler Gənclər Orkestrinin üzvü olmuş, 2004/07-ci illər ərzində Radio Simfonik Orkestrində çalışmışdır. 2007-ci ildən bu günə qədər müasir musiqinin təbliği və Vyanada müxtəlif orkestrlərdə (Volksoper, Niederösterreichische Tonkünstler, Wiener Kammerphilharmonie) ifaçılıqla məşğuldur. LUX ansamblının yaradıcılarından biri, Ensemble Reconsil və jazz qrupu Studio Dan kimi kollektivlərinin üzvüdür. Solist kimi də fəaliyyət göstərir - Purgina 2011-ci ildə R.Freisitzer`in Viola Konsertinin Azərbaycandakı premyerasında çıxış etmişdir. Bir çox bəstəkarlar ona Viola konsertlərini həsr etmişlər. Əsərləri bir çox ölkələrdə - Avstriya, Almaniya, İngiltərə, İtaliya, Finlandiya, Estoniya, Sloveniya, Bolqarıstan, Rusiya, Korea və s. səslənmişdir.

***Euonymus 2/11/08*** (*Euonymus* latın dilindən tərcümədə yabanı gilas ağacıdır) əsəri tenor saksofon və ansambl üçün yazılmış, ilk dəfə 2009-cu ilin oktyabrında Thomas Schön və Ensemble Reconsil tərəfindən Roland Freisitzer'in rəhbərliyi altında səsləndirilmişdir. İki hissədən ibarət bu əsəri bəstəkar məşhur Amerika yazarı John Updike'ın eyni adlı şeirindən təsirlənərək yazmışdır. Bu şeiri müəllif ölümündən bir qədər öncə qələmə almışdır. Yerə düşən qırmızı yarpaqların kölgəsində - payıza və melanxolik əhval-ruhiyyəyə uyğun olan şerdə, ciyərlərini bulud kimi tutan xəstəliyi və xəstəliyin qəfəsə çevirdiyi evini yazar təsirli şəkildə təsvir edir. Yaşadığı bu sarsıntıları qələmə alarkən, yazar evinin pəncərələrindən gördüyü gözəl təbiət mənzərələrini də təsvir etməyi unutmur...Son isə yaxınlaşmaqdadır..

*Pəncərəm deyir ki, yabanı gilas ağacı*
*Son ömrünü yaşayır indi.*
*Yarpaqlarını tökməzdən qabaq,*
*Tünd qırmızı rəngin içindədi.*
*Üzərini tünd kölgələr alıb.*
*Nəvələrimdən biri telefonuma*
*Səsli mesaj yollayıb*
*Səsi də böyüyüb, qalınlaşıb.*
*Soyuq var, buludlar yığılıb səmaya.*
*Rentgen göstərib ağciyərimi: pnevmoniya.*
*Evim indi qəfəs kimidir,*
*dəli kimi pəncərədən pəncərəyə boylanıram.*

*Zamanın ömrümdən qopardığı buludlara baxıram.*
*Qızıl xəzanlı payız gözəldir,*
*Ala qarğalar, ağ sinəli digər boz quşlar*
*Mövsüm olsa da isti diyarlara getmirlər nədənsə,*
*Səsləri gəlir, kolların arasından fırlayıb uçurlar.*
*Onları izləyirəm.*
*Yeni bu sondur? Bitəcək birnəfəsə?*
*Gözləyin məni, mən burdayam, yarı sağ olsam da,*
*Sizi gözləyirəm...*

(Tərcümə: Fərican Yaren)

**Gerard Grisey** (1946-1998) görkəmli fransız bəstəkarı, Paris Konservatoriyasında təhsil almışdır. Müəllimləri O.Messiaen və Henri Dutilleux olmuşlar. G.Ligeti, K.Stochausen, I.Xenakis`in Darmstadtda yeni musiqi kurslarının seminarlarında iştirakı onun bəstəkar kimi formalaşmasında həlledici rol oynamışdır.

70-ci illərdə gənc həmkarları Tristan Murail, Roger Tessier və Michael Levinas ilə *L'Itinèraire* - spektral musiqinin əsasını qoyan qrup yaratmışdır (burada kompüter vasitəsilə ayrı-ayrı səslərin spektral tərkibi tədqiq olunaraq nəticədə alınan material əsərə daxil edilirdi). 1982-ci ildən həyatının sonuna qədər Fransa və ABŞ-da tədrislə məşğul olmuşdur. Əsərlərinin sayının az olmasına baxmayaraq parlaq yaradıcılıq üslubu ilə fərqlənir.

Əsərləri: Müxtəlif instrumental tərkiblər üçün "Les espaces acoustiques", 4 valtorna və orkestr üçün "Epilogue", 5 alət üçün "Talea", 4 zərb alətləri ifaçısı, 2 sintezator və kamera orkestri üçün "Le temps et l'écume", iki vokal və iki orkestr qrupu üçün "L'icône paradoxale", 2 zərb alətləri ifaçısı üçün "Stèle", soprano və 15 ifaçı üçün "Quatre chants pour franchir le seuil" və s.

Festivalda diqqətinizə təqdim ediləcək 7 ifaçı üçün yazılmış ***Périodes*** (1974) əsəri spektral musiqinin parlaq nümunələrindəndir.







**Manuela Kerer** (*1980) 2007-ci ildə Milanda bəstəkarlıq üzrə təhsilini başa çatdırmışdır (prof. M.Lichtfuß və prof. A. Solbiati), bundan öncə violin (2004), hüquq (2004) və psixologiya (2005) üzrə təhsil almışdır.

Bir çox mükafatlara, o cümlədən "avantgarde tirol 2007","intellectually gifted - award" (Rotary Innsbruck), Avstriya bəstəkarlıq təqaüdü (2008 və 2011), İnnsbruck bəstəkarlıq mükafatı (2008), "Festival adevantgarde" Münhen, "Scholarship Richard Wagner" (2009), "Walther-von-der-Vogelweide" (2009) və Theodor Körner Preis (2011) layiq görülmüşdür. 2009-cu ildə Avropa Komitəsi tərəfindən "Avropanın 100 gənc istedadı"ndan biri seçilmiş, 2010-cu ildə "Asiagofestival" və "Komponistenforum Mittersill" forumlarında *Composer in residence* statusunda olmuşdur.

Bəstəkarın yaradıcılığında orkestr və musiqili teatr üçün əsərlər, solo pyeslər, kamera və vokal musiqisindən "qeyri-mümkün alətlər"ə (elektrik diş fırçası, yumurta kəsən və s.) qədər yazılmış əsərlər vardır, o həmçinin uşaqlar üçün də musiqi yazır. Festivalda diqqətinizə təqdim olunacaq violin və ansambl üçün ***Plas*** Konserti 2011-ci ildə xüsusi olaraq Ensemble Reconsil üçün yazılmışdır.

**György Ligeti** (1923-2006) bəstəkar, mikropolifoniyanın yaradıcısı. Rumın və macar xalq musiqisi, eləcə də, Bartok'un yaradıcılığı bəstəkarın formalaşmasına böyük təsir edib. 50-ci illərin sonu, 60 -cı illərin əvvəllərində yazdığı əsərlərdə kəşf etdiyi mikropolifoniyadan aktiv istifadə edir, həmin müddətdə statik sonorika texnikası və K.Stockhausen`lə birgə akademik elektron musiqi üzərində işləyir. 1963/65-ci illərdə yazdığı irihəcmli əsərlərindən biri – hiperdramatik *Requiem* onu geniş musiqi dairələrində tanıdır. 1975/77-ci illərdə absurd teatrının ideyası əsasında yazdığı *Le Grand Macabre* operasının musiqisindən S.Kubrik "2001; Kosmik odisseya" filmində istifadə etmişdir. 1980-ci illər yaradıcılığı neoromantizmə daha yaxındır. Son əsərlərindən biri – *Hamburg konserti* alman valtorna ifaçısı Mary Neunecker`ə həsr olunub.

Ligeti 50-ci illərdə Qərbdə yayılmış bəzi bəstəkarlıq texnikalarını (serializm, aleatorika) tənqid edən ilklərdən olmuşdur. Tədqiqat əsərlərini A.Webern, P.Boulez və s. bəstəkarlar haqda yazmışdır. Onun yaradıcılığına bütün dünyada festival və konfranslar, musiqişünas işləri həsr olunmuşdur. Bir çox mükafat və fəxri adlar almışdır.



Əsərləri: Rumın konserti, Aventures, Atmospheres, Monument, teatrallaşmış "Yüz metronom üçün simfonik poema", Yeni macəra, Requiem, Lux Aeterna xor əsəri, Kamera konserti, fleyta, oboe və orkestr üçün ikili Konsert, Ramifications, Le Grand Macabre operası, Violin, valtorna və piano üçün Trio və s.

***Kamera konserti*** (1969/70) bəstəkarın yararadıcılığında çox vacib əsərlərdən biridir. Dörd hissədən ibarət və çox özünəməxsus instrumental tərkibə malik olan Konsertdə mikropolifoniya texnikası özünün ən yüksək mərhələsinə çatdırılır. Hər birinin solo partiyası olan 13 alət üçün yazılmış bu virtuoz konsert əsəri "Die Reihe" ansamblı üçün yazılmışdır.

Bu əsərdə Ligeti`nin musiqiyə gətirdiyi yeniliklərin inkişafı özünü aydın göstərir. Konsertin III hissəsi 100 metronom üçün yazılmış Simfonik poemadan gələn ideyanın davamı hesab oluna bilər. Bəstəkarın poliritm, temp, metrə olan marağı və onun musiqi mətni üzərindəki maksimal nəzarəti aydın əks olunur. Əsərin premyerası 1 oktyabr 1970-ci il, Berlində Fridrich Cerha`nın dirijorluğu ilə keçirilmişdir.

## Elmi-nəzəri konfrans

4 aprel 2011, saat 10.00

Muzey Mərkəzi

Aparıcı Dr. **Rauf Fərhadov** (Rusiya)

| | |
|---|---|
| **Ülviyyə İmanova** (Azərbaycan) | *"Qara Qarayev: XXI əsrdən baxış"* |
| **Aleksandr İvaşkin** (Böyük Britaniya) | *"00-cı illərin musiqisində maksi və mini"* |
| **Arina Krıtska** (Almaniya) | *"Karlheinz Stockhausen'in səs dünyasında "Gestalt" problemi"* |
| **Marianna Visotskaya** (Rusiya) | *"Musiqidə intertekstual problemə dair"* |
| **Jerzy Stankiewicz** (Polşa) | *"Krakov bəstəkarlarının yaradıcılığı avantgarde və romantizm arasında"* |
| **Nino Jvania** (Gürcüstan) | *"Müasir fortepiano ifaçılığında bəzi prinsiplərə dair"* |
| **Viktor Yekimovski** (Rusiya) | *"Messiaen: XXI yüzilliyin bəstəkarı"* |



Jerzy Stankiewicz



Qara Qarayev IV müasir musiqi festivalı
Qara Qarayev
müasir musiqi festivalı

## Klangfarben und Lichtmusik

4 aprel 2011, saat 20.00

Dövlət Gənc Tamaşaçılar Teatrı

XX əsrin əvvəlində çəkilmiş filmlərə musiqi

**Entr'acte** (rejissor René Clair, 1924), musiqi **Erik Satie** (1924)
**Lichtspiel op. 4** (rejissor Walter Ruttmann, 1927), musiqi **Sven-Ingo Koch** "Barabande" (2007)
**Vormittagsspuk** (rejissor Hans Richter, 1928), musiqi **Martin Smolka** "Hats in the sky" (2004)
**un chien andalou** (rejissor Luis Bunuel, Salvador Dalí, 1929), musiqi **Iris ter Schiphorst** (2010)
**Entr'acte** (rejissor René Clair), musiqi **Martin Smolka** "En tractant" (2008)
**Studie Nr. 7** (rejissor Oscar Fischinger, 1930), musiqi **Johannes Brahms** "Macar rəqsi No. 5

**Ensemble Ascolta** (Almaniya)

**Markus Schwind** / tromba
**Andrew Digby** / trombon
**Hubert Steiner** / gitara, bas gitara
**Martin Homann** zərb alətləri
**Boris Müller** zərb alətləri
**Florian Hoelscher** piano, cembalo
**Erik Borgir** / violonçel

dirijor **Titus Engel**



Eric Satie

**Klangfraben und Licht** (Tembr və İşıq) layihəsi XX əsrin əvvəllərində lentə alınmış ekspressionist ruhlu eksperimental səssiz filmlərin yenidən "canlandırılması", onlar üçün müasir bəstəkarlar tərəfindən xüsusi musiqi yazılmasını ehtiva edir.

Adətən əsrin əvvəlində çəkilmiş səssiz filmləri yalnız piano müşayiət edirdi. Bir çox zaman ümumiyyətlə bəstəkarlara müraciət edilmirdi.

Bu layihə ilk dəfə 2004-cü ildə Ştuttqartda reallaşıb, o zaman layihədə iştirak edən və xüsusi sifariş almış bəstəkarlar Cornelius Schwehr, Caspar Johannes Walter, Cathy Milliken, Martin Smolka və Gunter Lege idi. Sonradan bu işə yeni əsərləri ilə Olga Neuwirth, Bernd Thewes, Sven-Ingo Koch, Ludger Brümmer, Oliver Frick (hətta Erik Satie ilə Johannes Brahms - onların da əsərləri bu layihə üçün yenidən işlənildi) kimi bəstəkarlar da qoşuldu.

Bəstəkarlar sadəcə 20-ci illərin avantgarde və eskpressionist ruhunda çəkilmiş filmlərə musiqi yazmalı deyil, gözlərimiz önündə canlanan bu heyrətamiz və abstrakt tablolara adekvat musiqi dünyası yaratmalı idilər. Bu özünəməxsus dialoq vizual elementlərə indiki dövrümüzün yüksəkliyindən görünəcək və akustik ekvivalent və "tamamlayıcı" musiqi şəklində olmalı idi.

Seyr edəcəyiniz kiçik metrajlı bu filmlər böyük eksperimentalist sənətkarlar tərəfindən - dadaistlər Hans Richter, Oskar Fischinger, Rene Clair və Walter Ruttmann tərəfindən lentə alınıb. Bu filmləri seyr edən zaman ekranda mücərrəd kubistik-abstrakt *Lichtspiel op.4* (rejissor W. Ruttmann) filmindən J.Brahms'ın 5 saylı Macar rəqsi ilə müşayiət olunan şən və oynaq *Study No 7* (rejissor O. Fischeringer) filminədək rastlaşa bilərsiniz. Tədbir zamanı iki dəfə nümayiş etdiriləcək *Entr'acte* (Antrakt) filmi rejissor René Clair tərəfindən 1924-cü ildə lentə alınmışdı, o zaman filmə orijinal musiqi bəstəkar Erik Satie tərəfindən yazılmışdı. Bu filmə yeni musiqi müşayiətinin müəllifi çex bəstəkarı Martin Smolka'dır. Beləcə seyrçilər biri-birini 80 ildən çox bir zaman ayıram bu iki musiqi müşayiətini müqayisə edə biləcəklər. Bunlardan başqa sürrealistlər L.Bunuel və S.Dali tərəfindən 1929-cu ildə birgə lentə alımış məşhur *un chien andalou* (Əndəlüs köpəyi) filmi də yeni musiqi transkripsiyasında diqqətinizə təqdim ediləcək.

Bu layihə 2006-cı ilin yanvarında ZDF/ARTE (İkinci alman Telekanalı) şirkəti tərəfindən Karlsruhe şəhərində çəkilmiş və eyni zamanda yeni əsərlərin yaranmasına da impuls vermişdir. Konsert şəklində layihə Almaniyada bir çox festivallarda nümayiş etdirilmişdir..



"Klangfarben und Licht" layihəsinin ifası zamanı





## Karlheinz Stockhausen filminin təqdimatı

5 aprel 2011, saat 10.00

Muzey Mərkəzi

„**Das Welttheater des Karlheinz Stockhausens** (SAMSTAG aus LICHT)"
("**Karlheinz Stockhausen'in dünya teatrı** (İŞIQdan ŞƏNBƏ)"

Təqdimatçı **Arina Krıtska** (Almaniya)



Şənbə opesasından bir parça,
Klavierstück XIII (Lucifers Traum)

**"Karlheinz Stockhausen'in dünya teatrı** (İŞIQdan ŞƏNBƏ)" filmi 1984-cü ildə WDR (Westdeutscher Rundfunk, Qərbi Almaniya radiosu) şirkəti tərəfindən çəkilmişdir. Yeddi operadan ibarət olan İŞIQ heptologiyası (LICHT, 1977-2003), bəstəkarın ömrünün 25 ildən də çoxunu sərf edərək yaratdığı və onun yaradıcılığının son dövrünü əks etdirən şah əsəridir. Filmdə bəstəkarın 1981/83-cü illərdə yazdığı ŞƏNBƏ operası təqdim olunur, bu onun 1978/80-ci illərdə yazdığı CÜMƏ AXŞAMI əsərindən sonra sayca ikinci operasıdır.

Silsilənin dramaturgiyasına görə, Şənbə - Lucifer'in günüdür, o həm silsilənin, həm də mistik və kosmik qüvvələrin üç əsas personajından (EVA və MICHAEL ilə bahəm) biridir. Stokhauzen'in mifologiyasında Lucifer "təmiz ruh"un varlığını təsdiqləyir və istənilən növ maddi mövcudluğu, eləcə də qeyri-mükəmməl hesab etdiyindən bəşəriyyətin yaradılması ideyasının da Tanrının kosmolojik layihəsinin bir hissəsi olduğunu inkar edir.



**Arina Krıtska** P.İ.Çaykovski ad. Ukrayna Milli Musiqi Akademiyasını musiqişünas ixtisası üzrə 1998-ci ildə bitirmiş, təhsilinin aspiranturada davam etdirmişdir (2006). Almaniyada elmi təcrübə məqsədi ilə 2001-ci ildə DAAD (Alman Akademik Mübadilə Xidməti) və 2003/04-cü illərdə Alfred Töpfer fondunun təqaüdünə layiq görülmüşdür, 2008-ci ildən sənətşünaslıq elmləri namizədi (mövzu - *K.Stockhausen yaradıcı təfəkkürünün xüsusiyyətləri: serializm, musiqi zamanı, mediasia metodu,* rəhbər N.A.Gerasimova-Persidskaya). Hazırda Köln Univesitetinin doktorantı, müasir musiqi və K.Stockhausen yaradıcılığı haqqında bir çox məqalələrin müəllifidir, müasir musiqi haqqında mühazirələrlə Ukrayna, Rusiya, İsveçrə və Almaniyada çıxışlar etmişdir.

## Zamanla üz-üzə

5 aprel 2011, saat 19.00

Azərbaycan Dövlət Filarmoniyası

I hissə

**Arnold Schönberg** (1874 –1951) **Simli kvartet Nr. 2** op. 10 (1908)
*soprano və simlilər versiyasında*
1. Mäßig
2. Sehr rasch
3. Litanei. Langsam
4. Entrückung. Sehr langsam

II hissə

**Toru Takemitsu** (1930-1996) **Andrey Tarkovskinin xatirəsinə Nostalgia** (1987)
*violin və simli orkestr üçün*

**Aleksandr Raskatov** (*1953) **Xenia** (1991)

**Qara Qarayev adına Dövlət Kamera Orkestri**

dirijor **Vladimir Runçak** (Ukrayna)

**Kaoko Amano** / soprano (Avstriya)

**Patricia Kopatchinskaja** / violin (İsveçrə)



Toru Takemitsu







**Arnold Schönberg** (1874-1951) görkəmli bəstəkar, dirijor, musiqişünas və rəssam, *Yeni Vyana Məktəbi*nin və musiqidə dodekafoniya texnikasının əsasını qoymuşdur. Prussiya incəsənət akademiyasının professoru olmuş, həyatının bir hissəsini ABŞ-da yaşamış, Konservatoriyada dərs demişdir. Yaratdığı bəstəkarlıq məktəbi ətrafında A.Webern, A.Berg, J.Cage, E.Villas, H.Eisler, E.Krenek kimi musiqiçilər birləşmişdir. *"Harmonielehre"* - 1911-ci ildə Schöberg tərəfindən nəşr edilmiş ilk elmi işi olub, müasir bəstəkarlıq üçün yazılmış dərslikdir. "Üslub və ideya", "Harmoniyanın quruluş funksiyaları", "Bəstəkarlığın əsasları" və s. onun nəzəri əsərlərindəndir. Schönberg`in rəsm əsərləri ekspressionist üslubda olaraq onun yaradıcılıq metodunun xarakteristikası kimi maraq kəsb edir. Dirijor kimi Berlin, Vyana, Amsterdam, London, St.Peterburq və s. şəhərlərdə çıxış etmişdir.

Schönberg 1907-ci ildə Wagner və neoromantizm təsirindən çıxır və kəskin şəkildə "sola" dönür. Onun inkişafının yeni mərhələsi bu zaman civarında yazılmış iki Simli Kvartet, Ballada op.12 və Kamera Simfoniyası ilə xarakterizə olunur. Stefan George'un sözlərinə yazılmış *15 Gedichte aus Das Buch der hängenden Gärten* əsəri onu tamamilə ekspressionistlərə yaxınlaşdırır. 1909-cu ildə yazılmış "Orkestr üçün 5 pyes"də ilk dəfə olaraq özünün yaratmış olduğu *Klangfarbenmelodie*, 1912-ci ildə A.Girrot`un şeirlərinə yazılmış vokal-instrumental *Pierrot Lunaire* əsərində isə ilk dəfə olaraq *Sprechstimme* – vokal reçitasiyadan istifadə edir.1920/23-cü ildə "Serenada"da ilk dəfə dodekafoniyanı tətbiq edir. 1925-ci ildə Schönberg Berlin Ali Musiqi məktəbində Ferruccio Busoni`nin xələfi olur, lakin Hitler çevrilişindən sonra vəzifəsindən uzaqlaşdırılmış Schönberg mühacirət etməli olur. Bəstəkar həyatının son illərini ABŞ-da keçirir.

XX əsrin görkəmli bəstəkarlarından B.Bartok, İ.Stravinski, S.Prokofyev, D.Şostakoviç, P.Hindemit və s. Schönberg musiqisi və təliminin təsiri altında dodekafon bəstəkarlıq texnikasına müraciət etmişdi.

Əsərləri: "Pelleas və Melizianda" simfonik poeması, Kamera simfoniyası, "Xoşbəxt əl" birpərdəli operası, 6 kiçik piano pyesi, 8 alət və qiraətçi üçün *Pierrot Lunaire*, "Fortepiano süitası", orkestr üçün Variasiyalar, *Erwartung* monodramı, Violin Konserti, 4 Simli kvartet, tamamlanmamış "Musa və Harun" operası və s.

***Simli kvartet Nr. 2*** (1908) 4 hissədən ibarət olan bu əsər bəstəkarın həyatının çox emosional bir dövrünə təsadüf edir. Əsərin soprano ilə müşayiət olunan III və IV hissələri simli kvartetin instrumental tərkibi üçün bir qədər qəribədir, burada bəstəkar alman şairi Stefan George poeziyasına müraciət etmişdir.

Əsərin ilk üç hissəsində tonal-harmonik prinsiplər saxlanılır, hərçənd ki, bu da bəstəkarın ilk simli kvartetində olduğu kimi neoromantik dövrün çox genişlənmiş tonallığıdır. Birinci hissədə ənənəvi olaraq sonata forması saxlanılır. İkinci hissə scherzo olaraq özündə Vyanada o zaman çox məşhur olan "Ach du lieber Augustin" ("Ah sən əziz Augustin") mahnısını ehtiva edir. Əsərin dördüncü hissəsində ümumiyyətlə heç bir tonallıq olmadığından bəstəkarın atolnallıq istiqamətində ilk eksperimenti sayıla bilər, hərçənd ki, əsər Fis-dur tonallığında bitir. Əsərin ilk ifası 21 dekabr 1908-ci ildə Rosé Quartet və Marie Gutheil-Schoder tərəfindən Vyanada baş vermişdir, sonralar bəstəkar əsərin soprano və simli orkestr üçün versiyasını da hazırlamışdı.

Əsərin son iki hissəsində istifadən olunan şeirlər alman şairi Stefan Geoge tərəfindən 1907-ci ildə qələmə alınmış *Der siebente Ring* (Yeddinci Üzük) poemasından götürülmüşdür.



"Mavi Avtoportret" 1910

**Toru Takemitsu** (1930-1996) yapon bəstəkarı və musiqişünası, müasir incəsənətinin təbliği ilə məşğul olan Cəmiyyətin (Dzikken Kobo - ustad emalatxanası) yaradıcılarından biri. İlk və yeganə müəllimi Müasir Musiqi Beynəlxalq Cəmiyyətinin yapon şöbəsinin rəhbəri Yasudzi Kiyöse idi. 1950-ci illərin ortalarından elektron musiqi ilə məşğul olmuş, yaradıcılığında Avropa və yapon mədəniyyətlərinin sintezinə çalışmışdır. Estetik dünyagörüşünün müəyyənləşməsində ona C.Debussy, A.Webern, E.Varez, A.Schönberg, O.Messiaen, J. Cage, ümumilikdə qərb musiqisinin böyük təsiri olmuş, yaradıcılığı İ.Stravinski tərəfindən yüksək qiymətləndirilmişdir. Takemitsu bir çox tanınmış yapon rejissorlarının film və teatr tamaşalarına musiqi yazmışdır. Avropa və Amerikanın böyük bəstəkarları ilə (K.Stochausen, I.Xenakis, H.Holliger) yaradıcılıq əlaqələri mövcud olmuşdur. 1971-ci ildə İ.Stravinski ilə birgə Parisdə Beynəlxalq muasir musiqi həftəsinin aparıcı bəstəkarı seçilmişdir. Bir çox beynəlxalq mükafatlara (o cümlədən Glenn Gould Prize) layiq görülmüşdür.

Əsərləri: Simli orkestr üçün Rekviem, Landscape, maqnitofon lenti üçün Water Music, piano və orkestr üçün Textures, 17 simli üçün The Dorian Horizon, yapon milli alətləri və orkestr üçün November Steps, Cross Talk, orkestr üçün Winter, Visions, Spirit garden, Twill by Twilight, In an autumn garden, A Flock descends into the Pentagonal Garden, Dreamtime, marimba və vibrophone üçün Rain Tree, violini dueti üçün Rocking Mirror Daybreak, piano və orkestr üçün Riverrun, piano üçün Rain Tree Sketch II və s.

***Andrey Tarkovskinin xatirəsinə Nostalgia*** (1987) əsəri görkəmli rus rejissoru Andrey Tarkovskinin xatirəsinə yazılmışdır, əsərin ismi rejissorun 1983-cü ildə lentə alıdığı və onun yaradıcılığın üçün müstəsna əhəmiyyət daşıyan "Nostalgia" filmindən götürülmüşdür.



**Aleksandr Raskatov** (*1953) rus bəstəkarı, Moskva Konservatoriyasını bəstəkarlıq (1978, A.Lemanın sinfi) üzrə bitirmiş, bundan sonra bir il və T.Xrennikov ilə məşğul olmuşdur. 1994-cü ildən mühacirət edərək Almaniyada yaşamış (2004-dən Fransa) və *Belaieff* nəşriyyatı ilə fəal əməkdaşlıq etmişdir. 1990-cı ildə ABŞ-da Stetson Universitetinə və 1998-də Lockenhausa Composer in residence statusunda dəvət almışdır. 1997-ci ildə Parisdə "Cite de la Musique" ustad dərslərində iştirak etmişdir. Raskatov musiqisi rus folkloru və kilsə musiqisi ilə sıx bağlıdır, bundan başqa bəstəkarın yaradıcılığına M.Musorqski və A. Webern estetikasının da böyük təsiri olmuşdur. Vokal əsərlərində rus şairləri A.Blok və İ.Brodskinin mətnlərindən istifadə olunur. 2010-cu ildə Raskatovun "İt ürəyi" (librettosu M.Bulqakovun eyni isimli romanından götürülmüşdür) operasının Amsterdamda (Dutch National Opera) premyerası olmuşdur. Bu əsər sonradan London (English National Opera) və St.Peterburqda (Mariinski Teatrı) səhnəyə qoyulmuşdur.

Əsərləri A. İvaşkin, G. Kremer, Y.Başmet, M.Perkasiy, C.Delangl, Netherlands Blazers Ensemble, Hilliard Ensemble, Schönberg Ensemble, Sabine Meyer Wind Ensemble, Beautiful Mountain Ensemble tərəfindən ifa edilmişdir.

Əsərləri: Hoboy və 15 simli üçün Konsert, Stabat Mater, "66 sonet", violonçel və piano üçün "Dolce far niente", solo violinçel üçün Kyrie eleison, viola, violonçel və orkestr üçün "Miserere", piano və zərblilər üçün "Misteria brevis", simli kvartet "I will see a rose at the end of the path", klavesin və orqan üçün Credo in Byzantium, viola və simlilər üçün Urlied, Sonnenuntergangslieder, soprano və ansambl üçün "In nomine" kamera orkestri üçün "Fünf Minuten aus dem Leben von W.A.M", "The Last Freedom", piano və simlilər üçün "Gens Extoris" və s., bir çox filmlərə yazılmış musiqinin müəllifidir.

***Xenia*** (1991) əsəri kamera orkestri üçün yazılmış və qeyri-adi tərkibə malik əsərdir.





## Heavy Metal

6 aprel, 2011, saat 16.00

Beynəlxalq Muğam Mərkəzi

| | |
|---|---|
| **Bernhard Lang** (*1957) | **Schrift 1.2** (1998) |
| **Kaija Saariaho** (*1952) | **Laconisme de l'aisle** (1982)<br>*fleyta və elektron musiqi* |
| **Gerald Eckert** (*1960) | **Klangräume II** (1991/2000)<br>*piccolo və musiqi mərkəzi* |
| **Salvatore Sciarrino** (*1947) | **All'aure in una lontananza** (1977) |
| **Türkər Qasımzadə** (*1988) | **Erin Lesser üçün solo** (2010) |
| **Gordon Kampe** (*1976) | **Heavy Metal** (2008) |
| **Bruno Maderna** (1920-1973) | **Musica su due dimensioni** (1958)<br>*fleyta və musiqi mərkəzi* |
| **Georg Friedrich Haas** (*1953) | **Finale** (2004) |

**Beatrix Wagner** / fleyta solo (Almaniya)
**Gerald Eckert** / səs rejissoru (Almaniya)



Kaija Saariaho

**Bernhard Lang** (*1957) Avstriya bəstəkarı, eksperimental və avangarde məktəbin nümayəndəsi. Musiqi təhsilini Linz Konservatoriyasında başlamış, Graz Universiteti, sonralar isə Karl-Franzens, Musiqi və Dram İncəsənəti Universitetində davam etdirmişdir. Bəstəkarlıqla yanaşı piano, fəlsəfə, germanistika, harmoniya və kompüter musiqisi ilə məşğul olmuşdur. Müəllimləri A. Dobrowolsky və Gösta Neuwirth olmuşdur. 1977/81-ci illər ərzində müxtəlif Jazz qrupları ("Erich Zann Septett") ilə çalışmış, 1988-ci ildən Graz Universitetində bəstəkarlıqdan dərs deyir. Bu zamandan etibarən microtonal musiqi texnikası ilə eksperimentlər aparır, 2006-cı ildə keçirilən Mozart ili festivalı üçün yazdığı *I Hate Mozart* operası onu tanıtmışdır. *Monadology* II əsəri ilk dəfə 2008-ci ildə Edinburgh Beynəlxalq Festivalında səslənmişdir. Mütəmadi olaraq müxtəlif səhnələrdə, Steirische Herbst Festival, Moskva Alternativ Festivalı, Moscow Modern Festival, Biennale Hannover, Tage Absoluter Musik Allentsteig, Klangarten, Darmstädter Ferienkurse, Salzburger Festival, Wien Modern kimi festivallarda əsərləri ifa olunur.
Əsərləri: Differenz/Wiederholung adı altında birləşmiş 30 pyes, "I Hate Mozart" operası, Monadology II , 'The Old Man from the Mountain" operası, 12 Monadologie , Simli Quartet və s.

***Schrift 1.2*** (1998) əsərində fleyta ifaçısının səsi alətin geniş imkanlı diapazonuna əlavə lay kimi artırılır. Səsin yaratdığı çoxsaylı dəyişikliklər virtuoz təkrar vasitəsilə özünü ifadə edir. Bir neçə laydan ibarət melodik təbəqə daxili mürəkkəblikdən xəbər verir, glissando və mikrotonal dəyişikləri səsləndirmək üçün ifa zamanı yaranan nəfəs alınıb-verilməsi, bu zaman yaranan səslər ifaya demək olar ki, teatral aspect gətirir.

**Kaija Saariaho** (*1952) Finlandiya bəstəkarı. XX əsrin sonu, XXI əsrin əvvəllərinin aparıcı bəstəkarlarından biri. İncəsənət və Dizayn Universitetində təhsil almışdır. 1976/81-ci illərdə Sibelius Akademiyasında Paavo Heininen`in, sonradan isə Freiburg Musikhochschule`da Brian Ferneyhough və Klaus Huber`in sinfində təhsilini davam etdirmiş, Parisdə IRCAM mərkəzində tədqiqat aparmışdır. 80-cı illərdə bir çox nüfuzlu mükafatlar qazanmışdır: *Kranichsteiner Prize* (1986), *Prix Italia* (1988), *Ars Electronica* (1987/88). 90-cı illərdə bəstəkarın əsərləri daha çox səslənməyə başlayır və müasir musiqi sahəsində tanınan bəstəkarlar sırasına daxil olur. 1991-ci ildə Finlandiya Milli Baletinin sifarişi ilə *The Earth* əsərini yazır.
1997/98-ci illərdə Sibelius Akademiyasında bəstəkarlıqdan dərs demişdir. 2000-ci il Salzburg Festivalında ilk operası *L'amour de loin* səhnələşdirilir. Bu dövrdə *Nordic Council Music Prize* və *Swedish Rolf Schock* mükafatlarına layiq görülmüşdür. 2-ci operası *Adriana Mater* 2006-cı ildə Paris Milli Operasının sifarişi ilə yazılmışdır. Son operası *Emilie* daxil olmaqla hər üç əsərin librettosu Amin Maalouf`a aiddir. 2008-ci ildə Amerikada keçirilən İlin musiqiçisi mükafatına, 2011-ci ildə ən yaxşı opera nominasiyasında *Grammy* mükafatına layiq görülmüşdür.

***Laconisme de l'aisle*** (1982) Əsərin yazıldığı dövrdə K.Saariaho Parisə gəlmiş və kompüter musiqisi ilə məşğul olmağa başlamışdır. Əsər IRCAM studiyasında hazırlanmış Vers le Blanc əsəri ilə eyni zamanda yazılmış əlyazma şəklindədir. Əsər fleyta ifaçısının mətni ilə başlayır. Tembr və səs tonunun növbələşməsi ilə əmələ gələn gərgin atmosfer prinsipi bəstəkarın sonrakı əsərlərində də təsadüf olunur. Saariaho bu metodu müxtəlif musiqi formalarına tətbiq etməyi qarşısına məqsəd qoymuşdu.



**Türkər Qasımzadə** (*1988) Bakı Musiqi Akademiyasının bəstəkarlıq fakültəsini bitirmiş, hazırda təhsilini Heydər Əliyev Fondunun və Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə New York şəhərində yerləşən "Manhattan School of Music"də, Dr. Reiko Fueting'in studiyasında davam etdirməkdədir. P.İ.Çaykovski ad. Moskva Dövlət Konservatoriyasının təşkil etdiyi Gənc Bəstəkarların V Beynəlxalq "Büllur Kamerton" və New York şəhərində keçirilən "Jordan Berk Memorial Prize" müsabiqələrinin qalibi, Melburn şəhərində keçirilən "Fəzada Davamlılığın Nadir Formaları" gənc bəstəkarlar müsabiqəsinin başlıca mükafatına layiq görülmüşdür. Daşkənd şəhərində keçirilən "Omnibus Laboratorium", Litvada keçirilən gənc bəstəkarların beynəlxalq "Druskininkai" və s. beynəlxalq festivalların iştirakçısı.

***Erin Lesser üçün solo*** (2010) Əsər New York şəhərində yazılmış, onun ilk ifaçısı, fleytist Erin Lesser'ə ithaf olunmuşdur. "Yox olma"nın fəlsəfi, vizual və səs hallərinin verilməsi bu əsərin önəmli məqsədlərindən biridir. Cəlaləddin Ruminin təbirincə, "Kədərlənmə, hər itirdiyin nəsnə başqa formada yenə peyda olur".



**Salvatore Sciarrino** (*1947) ) – italyan bəstəkarı, Milan, Florensiya və Romada Antonino Titone, Turi Belfiore, Franco Evangelisti`dən dərs almışdır. L.Nono`nun assistenti olmuş, 1977/82-ci illərdə Milan Konservatoriyasında dərs demiş, 1987/91-ci illərdə Boloniya şəhər teatrına rəhbərlik etmiş, Lectura Dantis (1986) tamaşasına musiqi yazmışdır. Əsərləri arasında kamera musiqisi üstünlük təşkil edir, opera və teatral musiqinin müəllifidir..
Bir çox mükafatlar – Guido Monaco (1972), Cassadó, IGMN və Dallapiccola (1974), Anno discografico (1979), Psacaropoulos (1983), Abbiati (1983) və Premio Italia (1984) qazanmış, Santa – Cecilia Milli Akademiyasının üzvü olmuşdur. Tələbələri arasında Francesco Filidei, Lucia Ronchetti, Fabrizio De Rossi Rei, Maurizio Pisati`nin adlarını çəkmək olar.
Əsərləri: Birpərdəli opera "Amore e Psiche", Sei Capricci, Aspern Suite, Che sai guardiano della notte?, Cailles en sarcophage operası, Introduzione all'oscuro, Efebo con radio, Hermes, Lohengrin, Omaggio a Burri, Luci mie traditrici operası, Septième Quator à cordes, Macbeth, Da Gelo a Gelo və s.

***All'aure in una lontananza*** (1977) "All'aure in una lontananza" -„Fabricca degli incantesimi" silsiləsinin ilk pyesidir. Əsərin adı Cavalier Marino`nun sonetindən götürülmüşdür. Əsər Capri`də olduğu müddətdəki melanxolik günlərdən birində yazılmağa başlanıb. Nəticə etibarı ilə elegiya xarakterli, özündə lirizmlə bərabər narahatlığı da birləşdirən əsərin yaranmasına gətirib çıxarıb. Minimal intensivlik zamanında istənilən dəyişikliyin izlənməsi mümkün olduğundan, bəstəkar bu prinsipə riayət edərək fəlsəfi mənanı açmağa çalışmışdır.

**Gordon Kampe** (*1976) bəstəkarlıq üzrə Rostock Konservatoriyasını bitirmiş (2000, Hans-Joachim Hespos və Adriana Hölszky), sonra təhsilini Essendə davam etdirmişdir (Nicolaus A. Huber). Əsərlərində xüsusilə teatr elementlərindən istifadə edilir.

***Heavy Metal*** (2008) Bu əsərdə aparıcı enerji axını müəyyən mərkəzdə birləşir. Ziddiyyətli işarələnmə diqqəti cəlb edir: *fff* əsər boyu maksimal səslənməyə gətirib çıxarır, müvafiq olaraq *prestissimo* mümkün qədər tez templə ifanı tələb edir. Bütün bunlarla yanaşı, ifaçının danışıq mətni əsəri əhatə edən şəbəkə yaratmış olur. Burada Arnold Schoenberg'in *Pierrot Lunaire* monodramından bir parça və Mozart'ın bəzi əsərlərindən istifadə olunaraq yaradıcılıq məhsulunun nəticəsi olan kollaj yaranmış olur.



**Gerald Eckert** (*1960) – alman bəstəkarı, violonçel ifaçısı və rəssamı. Nürnberg Konservatoriyasında əvvəl violonçel və dirijorluq, sonradan Essendə elektron musiqi ixtisası üzrə (Nicolaus A. Huber və Walter Zimmermann) dərs almış, James Dillon, Brian Ferneyhough və Jonathan Harvey`in bəstəkarlıq kurslarında iştirak etmişdir. 2000/02-də Darmştadtda mühazirələr oxumuş, 2006-cı ildə İsveçrədə composer in residence statusunda olmuşdur. 2008-ci ildə Berlin İncəsənət Akademiyası ilə birgə "Xor, rəqs, ansambl, video və elektronika" layihəsini hazırlamışdır.

Bir çox mükafatlar qalibidir: Luigi-Russolo-Prize '93, Gulbenkian-Prize '93, NDR-Prize '94, Kranichstein-Prize '96, "Biennale Hannover" '97 bəstəkarlıq müsabiqəsi qalibi, "S. Martirano müsabiqəsi" ABŞ, 2003, Bourges I mükafatı`2003, Wiener 2006, Los Angeles 2010 təqaüdü və s.

Əsərləri: "Aisthanómenon", "Klangräume", "Anachórèsis A", "Aphel", "In Sich Ohne Ausweg", "... stehen auch immer leerer ...", "Diaphane", "Nen", "Nachtschwebe", "Bruchstücke...erstarrtes Lot", violonçel və ansambl üçün "Nôéma", "Ogives", "Aufbrüche – Verwerfungen", "Schächte - les nuages d'automne", "vom Innen - Körnung", "... des Säglichen Zeit ...", "7 Nen", "pfadlos die Nacht", "2 Interferenz", "Nacht einer Zeit", "Inschriften", "Aube", "Prisma - du fond d'un naufrage", "Studie über Nelly Sachs", "Tratto" və s.

***Klangräume II*** (1991/2000) Əsərin əsas bəstələnmə aspekti alətin elektron musiqi ilə birgə işlənərək „imtahan" olunması və qrafika ilə səsin/tembrin birləşməsindədir. Məqsəd qrafik düzümlə səsin vahid uzlaşmaya gətirilməsi idi. Bununla bərabər qrafikaya estetik məna verilmişdi.



**Bruno Maderna** (1920-1973) italyan və alman bəstəkar və dirijoru 1920-ci ildə Venesiyada doğulan, 4 yaşında violin çalmağı öyrənən Bruno artıq 8 yaşına çatdıqda Milandakı məşhur La-Scala teatrının və Verona arenasının orkestrinə dirijorluq edirdi. O, öz təhsilini Milanda, Venesiyada və Romada davam etdirərək Gian Francesco Malipiero`dan bəstəkarlıq, Hermann Scherchen`dən isə dirijorluq sənətini öyrənir. II Dünya Savaşı zamanı partizan hərəkatında iştirakı zamanı əsir düşərgəsinə düşür. Savaşdan sonra, 1947/50-ci illərdə Venesiyada bəstəkarlıq dərsi deyir. Məşhur Luigi Nono elə həmin dövrdə onun sinfində təhsil alır.

1951-ci ildə, Darmştadtdakı Yeni Musiqi Yay Məktəbində o, Messiaen, Boulez, Stockhausen və Cage`lə tanış olur. 1955-ci ildə Luciano Berio ilə İtaliya Radio və Televiziyasında Musiqi Fonologiyası Studiyasının əsasını qoyur. 1957/58-cı illərdə Milan Konservatoriyasında müasir musiqi texnlogiyasından, dodekofoniya texnikasından dərs deyir. 1963-cü ildən AFR vətəndaşlığını qəbul edən Maderna 1967/70-ci illərdə Zalsburq Mozarteum`una, 1971/72-ci illərdə ABŞ-dakı Tanglewood Musiqi Mərkəzinə rəhbərlik edir.

Sənətçi 1973-cü ildə Debussy`nin *Pelléas et Mélisande* əsərinin məşqləri zamanı dünyasını dəyişir. Boulez, Donatoni və Berio kimi bəstəkarlar onun xatirəsinə ithaf olunmuş əsərlər yazmışlar.

Əsas əsərləri: Concerto per due pianoforti e strumenti, fleyta və piano üçün Honeyreves, Music in two dimensions, fleyta və lent yazısı üçün Notturno və Continuo, Hoboy və orkestr üçün üç konsert, dörd zərb aləti və dörd orkestr qrupu üçün Quadrivium, electro-akustik divertisment Le Rire və s.

***Musica su due dimensioni*** (1957/58) fleyta və stereo lent yazısı üçün bəstələnmişdir. Burada dəfələrlə irəli sürülən məsələ: akustik alətlərlə elektorn materialın birləşdirilməsi qarşıya çıxır. Qeyd edək ki, bu əsərin ilk variantı hələ 6 il öncə, 1952-ci ildə yazılmış və tam fərqli yanaşma ilə seçilir. Əsərin formal artikulyasiya planı gələcək inkişafda vacib rol oynayır: fleyta ifaçısı ilə bərabər lent yazısını idarə edən texnika eyni əhəmiyyətə malikdir. Burada ifaçının məharətindən asılı olaraq ona musiqi hissələri ilə sərbəst interpolyasiya etməyə imkan verilir.

**Georg Friedrich Haas** (*1953) Avstriya bəstəkarı, Graz Konservatoriyasında Gösta Neuwirth və Ivan Eröd`la bəstəkarlıq üzrə məşğul olmuş, sonradan təhsilini Vyana Konservatoriyasında Friedrich Cerha`nın sinfində davam etdirmişdir. 1978-ci ildən Graz Konservatoriyasında analiz, müasir musiqi texnikaları, mikrotonal musiqi fənnlərindən dərs deyir. 2005-ci ildən Bazel Konservatoriyasında mütəmadi olaraq mühazirələrlə çıxış edir. Bir çox beynəlxalq mükafatlara layiq görülmüşdür.

Haas üslubu mikropolifoniya, mikrointerval və oberton sırasından istifadəyə görə G.Ligeti`yə yaxındır. Əsərləri müxtəlif festivalların proqramlarına daxil olunmuşdur: Wien Modern, Huddersfield Festival, Venice Biennale, Festival d'Automne (Paris), Darmstädter Ferienkurse və s. O, "Die andere Seite" isimli Graz bəstəkarlar qrupunun yaradıcısı və üzvüdür. Haas musiqi nəzəriyyəçisi kimi də fəaliyyət göstərir, o Luigi Nono, Ivan Wışneqradski, Alois Haba və Pierre Boulez haqda məqalələrin müəllifidir.

***Finale*** (2004) Əsər ARD Musiqi Müsabiqəsi üçün yazılmış, səslənmə baxımından maksimal ziddiyyətlər üzərində qurulmuşdur. Tez-tez rast gələnən motiv təkrarlanmaları qruplaşaraq tədricən və çox az seziləbiləcək dərəcədə dəyişikliyə uğrayır, sonda səslənən ifadəli melodiyalar mexaniki inkişafa əks qütb yaradır.








Qara Qarayev adına I müasir musiqi Festivalında keçirilən konsertlərdən birinin proqram kitabçasının üz qabığı (1986)




Qara Qarayev adına II müasir musiqi Festivalının kitabçası (1988)



Qara Qarayev IV müasir musiqi festivalı

## Görüş. Muğam+

6 aprel 2011, saat 19.00

Dövlət Kamera və Orqan Musiqisi Zalı

**Xəyyam Mirzəzadə** (*1935) — **Dämmerung** (2003)
*bas klarnet solo*

**Firudin Allahverdi** (*1980) — **Starvation** (2009)
*bas klarnet, violin və violonçel üçün*

**İsmayıl Hacıbəyov** (1949-2006) — **İstək** (1998)
*fleyta, violin və piano üçün*

**Oleq Felzer** (1939-1998) — **Vestige** (1993)
*klarnet, violin və piano üçün*

**Rəhilə Həsənova** (*1951) — **Çeşmə** silsiləsindən iki pyes

**Vasif Allahverdiyev** (*1963) — **Qarabağ balladası** (2000)
*tar solo*

**Rüfət Xəlilov** (*1974) — **Erwartung** (2008)
*6 ifaçı üçün*

**Con tempo ansamblı** (Azərbaycan)

**Elman Mustafayev** / fleyta
**Nizami Zeynalov** / klarnet, bas klarnet
**Sahib Paşazadə** / tar
**Samir Əsədov** / violin
**Georgi İmanov** / violonçel
**Zakir Əsədov** / piano

Bu konsertin konsepsiyası
musiqişünas **Cahangir Səlimxanova** məxsusdur



İsmayıl Hacıbəyov



**Xəyyam Mirzəzadə** (*1935) Qara Qarayevin ilk məzunlarındandır. 50 ilə yaxın Azərbaycan Dövlət Konservatoriyasının (Bakı Musiqi Akademiyası) bəstəkarlıq kafedrasında professor vəzifəsində çalışıb, 1969-1982-ci illərdə kafedraya rəhbərlik edib. X.Mirzəzadə 40-a qədər bəstəkar yetişdirib. Artıq on ildir ki, Tehranın "Daneşgahe Hünər" Universitetində bəstəkarlıqdan dərs deyir. Bir sıra xarici ölkələrdə ustad dərsləri verib.

Bəstəkarların Ümumittifaq müsabiqəsinin laureatı (1963), Azərbaycan Lenin komsomolu mükafatı laureatı (1970), iki dəfə Respublika Dövlət Mükafatı laureatı (1975, 1986), Azərbaycanın xalq artistidir (1987). "Şöhrət" ordeni (2000) və Y.Məmmədəliyev adına medal ilə təltif edilib. X.Mirzəzadə 1957-ci ildən 2007-ci ilə kimi Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olub. Beynəlxalq miqyasda rəğbət qazanmış bir çox simfonik, kamera əsərlərinin müəllifidir.

***Dämmerung*** (Qüruba doğru, 2003) əsəri solo bas klarnet üçün yazılmışdır.

**Firudin Allahverdi** (*1980) Bakı Musiqi Akademiyasını bakalavr (prof. X. Mirzəzadənin sinfi, 2003) və magistr (dosent N. Mirişlinin sinfi, 2007) pillələri üzrə bitirmişdir. Müxtəlif müsabiqələrin iştirakçısı və qalibi – "Gənclər mükafatı", 2002, 2006; "Sərhəd qoşunları: dünən, bu gün, sabah" müsabiqəsi (I mükafat), 2002; "İlin ən yaxşı kamera musiqisi bəstəkarı", 2005 – olmuşdur. 2008-ci ilin avqust ayında İsveçrədə gənc bəstəkarlar arasında keçirilən IV Beynəlxalq müsabiqədə (pre-Art) Firudin Allahverdi "Paradoxes" əsəri ilə müsabiqədə birinci yeri tutaraq müsabiqənin əsas mükafatına layiq görülmüşdür. Xarici ölkələrdə keçirilən bir sıra ustad dərslərinin (Stockhausen courses, 2006, Almaniya; Omnibus-laboratorium, 2007, Özbəkistan) iştirakçısı olmuşdur. Əsərləri Azərbaycan, Gürcustan, İran, Türkiyə, Rusiya, Özbəkistan, Almaniya, İsveçrə, Ukrayna, Polşa, İtaliyada müxtəlif festival və konsertlərdə ifa olunub. Bəstəkar həm də gözəl tar ifaçısıdır.



Əsas əsərləri: 3 ansambl və zərb alətləri üçün "Çayxana", 8 alət üçün "Açarlar və Qapılar", Eastern Divertimento, Simli Kvartet,"12 ifacı ucun Musiqi", 4 ifaçı üçün "Təfsir", solo violonçel üçün "Tonyukuk bunu dedi…", 5 alət üçün "Üç badam bir qoz", tromba, zərb alətləri və simli orkestr üçün "Bütləşmənin mexanizmi" və s., bundan başqa bir çox tamaşa və filmlərə də musiqi yazmışdır.

***Starvation*** (Aclıq, 2009) Əsərin yazılmasının əsas səbəbi dünyadakı aclıq probleminə diqqət çəkməkdir: *"BMT hesabatlarına görə dünyada 1 milyarda yaxın insan aclıq içərisindədir. Bu məlumatı "bütövlükdə bir xəbər" şəklində deyil, ayrı-ayrılıqda 1 milyarda yaxın xəbər kimi anlamaq lazımdır."* Əsər 2009-cu ildə Norveçin Bergen şəhərində İnsan hüquqları müdafiəçilərinə verilən Rafto Mükafatının təqdimetmə mərasimində yerli BIT20 ansamblı tərəfindən ilk dəfə ifa olunmuşdur.

**İsmayıl Hacıbəyov** (1949-2006) Azərbaycan Dövlət Konservatoriyasını prof. Qara Qarayevin sinfi üzrə 1972-ci ildə bitirib. 1974-cü ildə aspiranturada təhsilini tamamlayıb. Həmin ildən ömrünün sonunadək ADK-nın bəstəkarlıq kafedrasında dərs deyib (1999-cu ildən professor). 2003-2005-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri vəzifəsində çalışıb. "Humay-1994" mükafatının laureatı, Azərbaycanın Əməkdar incəsənət xadimi olub. Əsərləri Rusiya, Almaniya, Çexoslovakiya, Yuqoslaviya, İsveçrə, Rumıniya və s. ölkələrdə ləyaqətlə Azərbaycanı təmsil edib. Boyakarlıq lövhələrinin, bədii-publisistik məqalələrin müəllifi kimi tanınır.

Əsas əsərləri: "Füruzə" operası, BSO üçün Uvertüra, violino, violonçel və simfonik orkestr üçün ikili konsert, fp. və simfonik orkestr üçün "Cəngi", Andersen nağıllarının motivləri əsasında "Uşaq səhnələri", "Naxışlar" fantaziya-feeriyası, kamera orkestri üçün Konsertino; "Memorial" kantatası (İ.Stravinski xatirəsinə ithaf), L.Tolstoyun şeirlərinə 2 a cappella xor, Nəsiminin şeirlərinə 6 a cappella xor pyesi, oktet üçün Divertisment, piano üçün "Watteau ruhunda eskizlər", "Albomdan səhifələr" süitası, "Üç idilliya"; "Bahar" (S.Vurğunun şeirlərinə), "Yalvarışlar" (Dante və F. von Hausenin şeirlərinə) vokal silsilələri, A.Puşkinin, S.Yeseninin şeirlərinə romanslar.

***İstək*** (1998) fleyta, klarnet və piano üçün neoklassik üslubda yazılmış əsərdir.







**Oleq Felzer** (1939-1998) Azərbaycan Dövlət Konservatoriyasını 1966-cı ildə prof. Cövdət Hacıyevin sinfi üzrə bitirib. Həmin ildən ADK-nın nəzəriyyə kafedrasında çalışmağa başlayıb. Diplom işi – nəfəs alətləri kvinteti və simli alətlərin tam heyəti üçün kamera simfoniyası Azərbaycanda belə heyət üçün yazılmış ilk əsərdir. 70-ci illərin sonunda Q.Qarayevin təşəbbüsü ilə O.Felzer R.Abdullayev, F.Qarayevlə birlikdə ADK-nın Opera studiyası nəzdində XX əsr musiqisinin ifasında ixtisaslaşan kamera orkestri yaradır. Məhz O.Felzerin rəhbərliyi altında SSRI-də ilk dəfə W.Lutoslawskinin "Prelüd və fuqa"sı səslənib. O.Felzer habelə C.Malipyero, P.Renosto, A.Schnittkenin əsərlərinə dirijorluq edib. Bəstəkarın ən yaxşı əsərlərindən biri – solo viola ilə BSO üçün "... and Harold again" simfoniyasının (H.Berliozun xatirəsinə ithaf) premyerasını dirijor R.Abdullayev həyata keçirib (1984). Həmin əsər 2003-cü ildə Moskva Konservatoriyasının Böyük zalında Y.Başmetin rəhbərliyi və iştirakı ilə səslənib.

1989-cu ildə O.Felzer ABŞ-a köçür, bəstəkarın əsərləri ABŞ və Avropada ifa olunmağa başlayır. Həyatının sonunda Felzer ABŞ Konqresi Kitabxanasından əsər yazmaq kimi çox nüfuzlu sifariş alır. Qeyd edək ki, belə sifarişi vaxtilə Stravinski və Schnittke almışlar. O.Felzerin son əsəri – violino və fleyta üçün "Monodiya" tamamlanmayıb. Ölümcül xəstə olan bəstəkarın iradəsinə uyğun olaraq, bu əsəri onun yaxın dostu – F.Qarayev müəllif əlyazmaları və göstərişləri əsasında sona çatdırıb. "Monodiya"nın premyerası O.Felzerin qırxına iki gün qalmış Vaşinqtonda ABŞ Konqresi Kitabxanasında reallaşdırılıb. Mühacirətdə O.Felzer vətənindən – Bakıdan, Azərbaycandan ayrı düşdüyünü, hicran hissini çox ağır yaşayırdı. Mənşəyinə baxmayaraq, bəzilərinə qəribə gəlsə də, o, özünü həmişə Azərbaycan bəstəkarı duyurdu. Onun bu festivalda səslənən və 1993-cü ildə yazılmış ***Vestige*** əsəri (bu söz çapıq, sağalmayan yara kimi tərcümə olunur), başqa ada – Heimweh, yəni Vətən həsrəti – malik ola bilərdi.

**Rəhilə Həsənova** (*1951) A.Zeynallı adına Musiqi Texnikumunda prof. Xəyyam Mirzəzadənin bəstəkarlıq sinfində təhsil alıb (1968-1972-ci illər). 1977-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını prof. Qara Qarayevin sinfi üzrə bitirib: buradaca Q.Qarayevin rəhbərliyi altında assistent-təcrübəçi kimi təkmilləşib. Musiqi yaradıcılığını elmi və pedaqoji fəaliyyətlə uzlaşdırır. Bir sıra elmi məqalələrin, dərs vəsaitlərinin (məsələn, solfecio üzrə müəllif dərsliyinin), monoqrafiyaların və s. müəllifidir. 2005-ci ildə namizədlik dissertasiyası müdafiə edib. Hal-hazırda Bakı Musiqi Akademiyasının musiqi tarixi kafedrasının dosentidir. Əsərləri Hollandiya (Nieuw Ensemble), Almaniya (Minguet Quartett), Rusiya (Студия Новой Музыки), İtaliya, İngiltərə, Polşa, Kanada və s. ölkələrdə ifa olunub. ***"Çeşmə" silsiləsi*** fortepiano üçün yazılmışdır.

**Vasif Allahverdiyev** (*1963) Bakı Musiqi Akademiyasını bəstəkarlıq istisası üzrə bitirmişdir (prof. İsmayıl Hacıbəyovun sinfi), 1994-cü ildən Bəstəkarlar İttifaqının üzvü, Azərbaycan Milli Konservatoriyasının dosenti, Əməkdar incəsənət xadimi. Əsərləri: Atatürkə həsr olunmuş Simfoniya, "Ömür yolu" simfonik poeması, Fortepiano üçün Sonatina və prelüdlər, Kamera orkestri üçün "Hara gedirsən", "O yollar" və s.

Solo tar üçün ***"Qarabağ balladası"*** əsəri bəstəkar tərəfindən 1998-ci ildə yaradılıb.



**Rüfət Xəlilov** (*1974) Bakı Musiqi Akademiyasının bəstəkarlıq fakültəsini 1999-cu ildə prof. Ismayıl Hacıbəyovun sinfi üzrə bitirmişdir. 2000/02-ci illərdə İ.Hacıbəyovun sinfində assistent-təcrübəçi kimi çalışmışdır. 2003/05-ci illərdə DAAD (Alman Akademik Mübadilə Xidməti) təqaüdünü alaraq, Lübek şəhərində prof. Dieter Mackın sinfində təhsilini davam etdirmişdir. 2000 və 2005-ci illərdə Azərbaycan Gənclər Nazirliyinin Bəstəkarlar İttifaqı ilə birgə keçirdiyi "İlin ən yaxşı əsəri" müsabiqəsində kamera-instrumental janr üzrə laureat adını qazanmışdır. Polşa, Almaniya, Danimarka, İtaliyada gənc bəstəkarların seminarlarında iştirak etmiş, əsərləri həmin ölkələrdə səsləndirilmişdir.
Əsərləri: BSO üçün "Memuarlar", kamera orkestri üçün "Freskalar", "Fobia" simli kvarteti, Violin Konserti, qarışıq xor ilə simfonik orkestr üçün "Nəsimi" kantatası, "Röya nəğməsi", "Nikolett" adlı vokal miniatürlər (U. De la Marın şeirlərinə) və s

***Erwartung*** (2008) əsəri 2004-cü ildə qələmə alınmış *Gözləmə* əsərininin materialı əsasında xüsusi olaraq bu layihə üçün işlənilib. Bu birhissəli kompozisiya müəllifin təsəvvürünə gətirdiyi görüntü nəticəsində yazılmış psixoloji lövhədir.

## Träume

7 aprel 2011, saat 19.00

Azərbaycan Dövlət Filarmoniyası

I hissə

**Bernhard Wulff** (*1946) — **Lerche** (1981)

**Dimitri Yanov Yanovski** (*1963) — **Memorial** (2003)
*4 zərb alətləri ifaçısı üçün*

**Iannis Xenakis** (1922-2001) — **Rebonds** (1989)
*solo bongos*

**Natsag Jantsannorov** (1949) — **Çingiz ölkəsi üzərindən** (2003)
*2 ənənəvi monqol ifaçısı və 4 zərb alətləri ifaçısı üçün*

**Emmanuel Sejourne** (*1961) — **Vous avez du feu?** (2008)

II hissə

**Nicolaus A. Huber** (*1939) — **Clash music** (1988)

**Elmir Mirzəyev** (1970) — **L'identification de la vengeance d'Eurydice** (2011)
*fleyta və 4 zərb alətləri ifaçısı üçün performance*

**Javier Alvarez** (1956) — **Temazcal** (1984)

**Steve Reich** (*1936) — **Drumming part 1** (1970-71)
*4 zərb alətləri ifaçısı üçün*

**Freiburg Percussion Ensemble** (Almaniya)

**Francesca Santagelo** / zərblilər
**Christopher Sande** / zərblilər
**Julian Belli** / zərblilər
**Peer Kaliss** / zərblilər
**Samdandamba Badamxorol** (urtiin du oxunuşu)
**Dandarvaançiq Enxjargal** (oberton oxunuşu)
**Beatrix Wagner** / fleyta / bas fleyta

dirijor **Bernhard Wulff** (Almaniya)





**Bernhard Wulff**'un 4 ifaçı və musiqi mərkəzi üçün **Lerche** ("Torağay", 1981) əsərində ismindən göründüyü kimi, bütün ritm və tembrlər quş səslərindən götürülmüşdür və əsər boyu ifaçıları quş səslərindən tərtib edilmiş lent yazısı izləyir. Beləcə ansambl ifa zamanı lent yazısındakı "baş ifaçını" izlədikcə əsas tempdən çıxır və rubato tempində quş səslərini imitasiya edir.

**Dmitri Yanov-Yanovski** 1986-cı ildə Daşkənd Konservatoriyasının bəstəkarlıq fakultəsini bitirmiş (F.Yanov-Yanovskinin sinfi), 1991-ci ildə Danimarkada Poul Ruders və Edison Denisovun ustad dərslərini almış, 1993-cü ildə Parisdə IRCAM yay kurslarını keçmişdir. Elə həmin il qələmə aldığı, Phyllis Bryn-Julson və Arditti Quartet tərəfindən ifa edilmiş *Lacrimosa* əsərinin Friburq şəhərində keçirilən sakral musiqi müsabiqəsində qalibiyyəti bəstəkara dünya şöhrəti gətirmişdir. Daha sonra *Presentiment* əsəri Bostond ALEA III Beynəlxalq mükafatına və film musiqisi kimi Kann Film Festivalında Prix Spécial de Nantes mükafatına layiq görüldü. 90-cə illərdə Yanov-Yanovski həmçinin çəng aləti ifaçısı kimi də məşhurlaşır (hətta Kronos Quartet ilə birgə konsertlər verir), o bu alət üçün bir çox əsərlərini də yaradır. 1996-cı ildə o Daşkənddə ilk dəfə "İlhom XX" müasir musiqi Festivalı təşkil edir, bu festival 2006-cı ilədək müntəzəm olaraq keçirilmişdir.

2002/04-cü illərdə bəstəkar Belçika ansamblı Ensembles Musiques Nouvelles kimi bir kollektivdə Composer in Residence statusunda, 2008/09-cu illərdə isə bu statusda qonaq qismində Harvard Universitetində çalışır. Bir çox səhnə əsərlərinin, orkestr və müxtəlif instrumental tərkibli kamera musiqisinin, habelə 50-yə yaxın filmə yazılmış musiqinin müəllifidir.

***Memorial*** (2003) 4 zərb aləti ifaçısı üçün yazılmış bu çox incə və zərif ifadəli əsər yapon bəstəkarı Toru Takemitsunun xatirəsinə həsr olunmuşdur. Əsərdə Takemitsunun bir zamanlar ənənvi yapon musiqisinə apellyasiya edərək yaratdığı eyni tərkibli "Raintree" əsərinə istinad edilir.



**Iannis Xenakis** (1922-2001) – yunan əsilli fransız bəstəkar və memarı, Musiqi və memarlıqda avantgarde və konseptualizmin liderlərindən biri, stoxastik musiqinin yaradıcısı. Riyaziyyat və musiqi nəzəriyyəsi ilə də məşğul olmuşdur.

1946-cı ildə Yunanıstanda Texniki universiteti bitirmiş, sonra Parisdə uzun müddət tanınmış memar Le Korbuzye`nin yanında çalışmışdır. A.Honegger və D.Miyo`dan bəstəkarlıq dərsləri almış, Paris Konservatoriyasını bəstəkarlıq üzrə O.Messiaen`in sinfini bitirmişdir. Orkestr üçün yazdığı Metastasis" pyesi ona böyük uğur gətirmişdi. Xenakis nəzəriyyəçi kimi vacib elmi işlərin müəllifidir - musiqinin riyazi formalaşması haqda *Musigues formelles*, musiqi ilə memarlığın bağlılığı haqda *Musigue, Architecture* və s., məqalələrində serializmi kəskin tənqid etmişdir.

60-cı illərin əvvəllərindən başlayaraq o, adi musiqi alətləri ilə yanaşı elektron musiqidən, kompüter texnikasından da istifadə etməyə başlayır. Riyazi prinsiplər üzərində qurulan, özünün şəxsi bəstəkarlıq sistemini yaratmış, elektronika vasitəsilə qeyri-adi səslənmələrə nail olmuşdur. İşıq-musiqi effektli tamaşaların təşəbbüskarı olmuşdur. Bəstəkara onun *Kraanerg* və *Antikhthon* baletləri, orkestr üçün *Jonchaies* və *Empreintes* əsərləri dünya tanıtımı qazandırmışdır.
Əsərləri: Metastasis, Pithoprakta, orkestr və 21 alət üçün Achorripsis, 2 kiçik orkestr üçün Duel, simli orkestr üçün Syrmos, nəfəsli orkestr üçün Akrata, Terretektorh, 4 orkestr üçün Polytope, Nomos gamma, piano və orkestr üçün Synaphaï, Zygia, Zygia kathisto, Anastenaria, Pithoprakta, Terretektohr, Herma, Eonta, Diamorphosis və s.

***Rebonds*** (Sıçrayış, 1989) Məlum olduğu kimi Xenakis bəstəkar və memar olmuşdur, onun əsərləri daima arxaik mərasim və müasir texnoloji arasındakı kontrastlarla çarpazlaşır. Solo olmasına rəğmən belə kontrastlarla zəngin "Rebonds" əsərində yalnız iki tembr yaradacaq material var: ağac və dəri.

**Emmanuel Sejourne** (*1961) təhsilini Strasburq Milli Konservatoriyasında (piano, violin, musiqi tarixi və təhlil ixtisası üzrə) bitirdikdən sonra o Percussions de Strasbourg ansamblının yaradıcısı Jean Batigne, tərəfindən bu kollektivə daxil edilmişdir, bu isə zərb alətlərindən başqa həmçinin müasir musiqi və improvizasiya dünyasına bir giriş idi. Musiqiçi məhz burada zərb alətlərində, xüsusən vibrafon və marimba ifaçısı kimi ixtisaslaşır. 1981-ci ildən başlayaraq o həm də bəstəkar kimi fəaliyyət göstərir.

***Vous avez du feu?*** (Odunuz varmı?, 4 ifaçı üçün, 2008). Zərb alətləri ifaçıları bir çox zaman böyük alətlərə ehtiyac duyurlar, lakin burada əsərin ifaçı üçün sadəcə alışqanlar nəzərdə tutulmuşdur, belə ki, buradakı ritmik strukturların təsbiti və inkişafı üçün yalnız bunlar yetərlidir.

**Nicolaus A. Huber** (*1939) bəstəkarlıq üzrə Münhendə G. Balias, Darmştadtda K. Stockhausen вə Venesiyada L. Nono'dan dərslər almışdır. Münhendə J.A. Riedl ilə birgə Siemens Electronic Studioda çalışmış, 1977-ci ildən başlayaraq Essendə bəstəkarlıq sinfi üzrə professordur. Almaniyanın məşhur bəstəkarlarından biri, əsərləri bir çox ölkələrdə dünya şöhrətli kollektivlər tərəfindən səsləndirilmiş və lentə alınmış, müxtəlif mükafatlara layiq görülmüşdür. Orkestr, müxtəlif instrumental tərkibli kamera ansamblları, bir çox alətlər üçün solo əsərlərin, həmçinin elektron musiqisi, habelə filmlərə yazılmış musiqisinin müəllifidir.

***Clash music*** (1988) Bu əsər özlüyündə kiçik *piatti* ifa edən qrupun fanfarası kimi səslənir. Kifayət qədər məhdud bir tembr seçiminə rəğmən, ifa zamanı çox rəngarəng bir atmosfer yaranır.



**Elmir Mirzəyev** (1970) Bakı Musiqi Akademiyasını 1994-cü ildə prof. Fərəc Qarayevin sinfi üzrə bitirmiş, 1998-ci ildə BMA-nın aspiranturasında təhsilini tamamlamışdır. 1994-cü ildə bəstəkarlar J.Dillon və O.Lützow-Holm'un rəhbərliyi altında Höteborqda ixtisaslaşma keçib, 1999-cu ildə Appeldoornda L.Andriessen, M.Smetanin və Ensemble de Ereprijs tərəfindən təşkil edilən Gənc Bəstəkarların V Görüşünün iştirakçısı olub. 1998-2001-ci illərdə BMA-da prof. F.Qarayevin assistenti kimi çalışıb. DAAD təşkilatının xüsusi proqramı çərçivəsində 2007-ci ilin payızında Köln Konservatoriyasında prof. Y.Höller'in assistenti kimi fəaliyyət göstərib, 2010-cu ildə yenə də bu proqram çərçivəsində Weimar Konservatoriyasında prof. Albrecht von Massow'un rəhbərliyi ilə "Totalitarizm və avantgarde" mövzusunda tədqiqat işi aparmışdır. 1995-ci ildə SoNoR Müasir Musiqi Ansamblını (1998-ci ildən Müasir Musiqi Təşəbbüs Mərkəzi) yaratmışdı, mərkəzin bədii rəhbəri kimi 1996/2006 illər ərzində bir çox beynəlxalq layihələri həyata keçirmişdir. Əsərləri bir çox ölkələrdə səslənmiş, MDB, Avropa və ABŞ-da keçirilən müxtəlif beynəlxalq festival, konfrans, görüşlərin iştirakçısı olmuşdur.

Əsərləri Tokio Filarmonik Orkestri, Bazel Simfonik Orkestri, Seattle Chamber Players (ABŞ), Ensemble Accroche Note (Fransa), Icarus Ensemble (İtaliya), TaG Ensemble (İsveçrə), Freiburg Percussion Ensemble (Almaniya), Ensemble Reconcil (Avstriya), və s. kollektivlər tərəfindən Konzerthaus Berlin, Hochschule für Musik Köln, Festspielhaus Hellerau (Dresden), Hochschule für Musik Freiburg, Wiener Konzerthaus kimi zallarda ifa olunub.

***L'identification de la vengeance d'Eurydice*** (Evridikanın qisasının identifikasiyası, 2011) Əsərin ideyası və ismi məşhur yunan əsatirindən və onun ikinci "dirilişi" - fransız dramaturqu və rejissoru Jean Cocteau'un filmininin təsiri ilə yaranıb. Lakin onlardan fərqli olaraq burada baş qəhrəman kimi məhz Evridika çıxış edir, onunla mübarizə aparan məxluqlar isə Aidin, onu Orfeydən ayırmış qeybin sakinləridir. Əgər Xeron çayından Aidə, yəni səhnəyə gətirilmiş fleytaçı xanım bu alətin ülvi tembrinin daşıyıcısıdırsa, əksinə zərb alətlərinin ifaçıları qorxu və dəhşətlərin rəmzidir. Əsərdə Aidi, yəni cəhənnəmi, əslində müasir dünyamızı təsvir edən səhnədəki qeyri-bərabər mübarizədə üsyana qalxmış qadın hikkəsinin faktiki məğlubiyyəti bu qədim əsatirin çağdaş hekayəsidir. Əsərdə C.W.Gluck, J.Haydn və K.Stockhausen'in əsərlərindən sitatlar var.







Samdandamba Badamxorol

Monqol bəstəkarı **Natsagiin Jantsannorov** (1948) tərəfindən qələmə alınmış ***Çingiz ölkəsi üzərindən*** (2003) əsərində zərb alətləri ilə bərabər ənənəvi monqol musiqisi istifadə edilib.

Ənənəvi monqol musiqisində təbiət ilə dialoqun bir növü kimi iki unkal vocal texnikası mövcuddur: *Xöömiy* (oberton oxunuşu) və *Urtiin du* (uzun hava, yalnız qadınların ifasında olur).

Bu tip vokal oxunuşu (əsasən oberton oxunuşu nəzərdə tutulur) tərzi monqol və kalmıklardan başqa bir çox türk kökənli xalqlarda da xarakterik olaraq altay xalqlarında, başqırdlarda, xakaslarda və Tuvada da mövcuddur. Altay xalqlarında bu tip oxunuşa *kay* deyilir və bu ifa tərzi ilk növbədə epik dastanların nəqli üçün nəzərdə tutulur. Başqırd və buryatlarda bu tip oxunuş *uzlau* adlanır.

Bu əsərdə zərblilər ilə birgə hər iki oxu metodundan istifadə edilir.

**Javier Alvarez** (1956) Meksika bəstəkarı, əsərlərində bir çox üslub və ənənə sintezi var, bir çox zaman qeyri-adi alətlərin istifadəsi ilə yanaşı müasir texnologiyalara da müraciət edir. Təhsilini Royal College of Music və London Universitetində almışdır, bir çox mükafatlara, o cümlədən *Mendelssohn Scholarship, Lionel Robbins Award, Gemini Fellowship, ICEM Prize* (1987), *Austria's Prix Ars Electronica* (1993) və s. layiq görülmüşdür. Rejissor Guillermo del Toro tərəfindən 1993-cü ildə lentə alınmış "Xronos" dəhşət filminə yazdığı musiqi ona dünya şöhrəti gətirmişdir.

Əsərləri Chicago Symphony Orchestra, London Sinfonietta, Los Angeles Philharmonic, Mexico City Philharmonic, Orchestre National de France kimi dünya şöhrətli kollektivlər tərəfindən ifa edilmişdir.

***Temazcal*** (1984) Astek dilindən tərcümədə bu əsərin ismi "Yanar su" kimi səslənir. Bir cüt maracas və elektron səslənmə üçün yazılmış əsərdə ifaçının bir-birini əvəzləyən dramatik və əksinə, füsunkar jestlər çox vacib rol oynayır.

**Steve Reich** (*1936) görkəmli Amerika bəstəkarı, ABŞ-da yaranmış *Pop-Art* üslubundan ilhamlanaraq, musiqi tarixinə *minimalizm* kimi qeyd edilmiş təmayülünün görkəmli simalarındandır. Onun əsərlərində çox yüksək templərdən istifadə olunmasına rəğmən bunlar dinləyicilərdə statika təsiri bağışlayır. Bu zaman statikanın daxilindəki kiçicik hərəkətlər belə, dinləyiciyə dərin təəssürat bağışlayır. Bu üslub çox qəribə olsa da, statika ilə yüksək tempi birləşdirməyə nail olmuşdur. Festivalda diqqətinizə təqdim edilən ***Drumming part 1*** əsəri də bu qəbildəndir.

Reich minimalist estetikasından təsirlənən bir çox məşhur bəstəkarlar sırasına Philip Glass və John Adams da daxildir. Bəstəkar bir çox beynəlxalq mükafatlara, o cümlədən 1990-cı ildə müasir klassik musiqi nominasiyası üzrə *Grammy*, 2000-ci ildə *Schuman Prize*, 2006-cı ildə *Praemium Imperiale*, 2007-ci ildə *Polar Music Prize*, 2009-cu ildə isə *Double Sextet* əsərinə görə *Pulitzer Prize for Music* mükafatına layiq görülmüşdür.

Əsərləri: Pendulum Music, Piano Phase, Clapping Music, səs, orqan və 6 piano üçün Musiqi, Oktet, Variasiyalar, Tehillim, Different Trains, Three Tales video-operası, Üçlü Kvartet, Dance Patterns, Cello Counterpoint, You Are, 2 marimba və 2 vibrafon üçün Mallet Quartet , simli orkestr və musiqi mərkəzi üçün WTC 9/11 və s.



Steve Reich

## Festivalın bağlanışı

8 aprel 2011, saat 19.00

Azərbaycan Dövlət Filarmoniyası

I hissə

**Alban Berg** (1985-1935) — **Violin Konserti** (1935)
1. Andante. Allegretto
2. Allego. Adagio

**Qara Qarayev** (1918-1982) — **Violin Konserti** (1967)
1. Allegro moderato
2. Andante
3. Allegro

II hissə

**Fərəc Qarayev** (*1943) — Orkestr və solo violin üçün **Konsert** (2004)
1. Mövzusuz variasiyalar
2. Mövzu və allüziyalar
3. Dörd variasiya və mövzu

**Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri**

bədii rəhbər və baş dirijor **Rauf Abdullayev**

solist **Patricia Kopatchinskaja** / violin (İsveçrə)







**Alban Berg** (1985-1935) görkəmli Avstriya bəstəkarı, pedaqoqu, alman ekspressionizmi və *Yeni Vyana Məktəbi* nümayəndələrindən biri. A.Schönberg`in tələbəsi və onun yaradıcılığının fəal təbliğçisi olmuşdur. İlk əsərləri dodekafon texnikasında yazılıb. Sonrakı dövr romantizmə dayaqlandığından onu bəzən "dodekafoniyanın romantiki" adlandırırdılar.

1904/10-cu illərdə A Webern ilə bərabər A.Schönberg`in tələbəsi olmuşdur. Bu neoromantizmin tədricən ekspressionizm tərəfindən dəf edildiyi və atonal musiqinin tədricən yarandığı zamana təsadüf edirdi. Bu estetikanın dayanışması böyük çətinliklərlə baş verirdi. 1913-cü ildə bəstəkarın ilk böyük əsərlərindən birinin - Orkestr üçün 5 mahnı (mətnlər Peter Altenberg, op. 4) - ilk ifası zaman qalmaqal baş verir və ifa dayandırılmalı olur. Bu əsər bütünlüklə 1952-ci ildə ifa edildi.

Bəstəkar 1917-1921-ci illərdə yaşanan müharibə dövrünü - Georg Büchner`in prozaik mətnli əsəri əsasında sonradan dünyada XX əsrin əsas musiqili-dramatik əsərlərindən biri kimi tanınacaq *Wozzek* operasında əks etdirir. Bəstəkarın ikinci operası – *Lulu* tamamlanmamışdır. Bəstəkarın instrumental yaradıcılığının zirvəsini onun son əsəri - Violin Konserti ("Bir mələyin xatirəsinə") təşkil edir. Bu əsər gənc bir qızın ölümündən təsirlənərək yazılmış və öz janr tarixində yeni mərhələyə başlanğıc vermiş rekviem xarakterli Konsertdir.

A.Berg Prussiya incəsənət akademiyasının üzvü olmuşdur. Pedaqoq kimi aktiv fəaliyyət göstərmiş, tələbələrindən biri kimi tanınmış alman filosofu və musiqişünası Teodor Adorno`nun ismini hallandırmaq olar. Bəstəkarın yaradıcılığı XX əsr bəstəkarlarına, xüsusilə D.Şostakoviç, Q.Qarayev, E.Denisov, A.Schnittke və s. böyük təsir göstərmişdir.

Əsərləri: Sonata, Simli kvartet, "Orkestr üçün 5 mahnı", Klarnet və piano üçün pyeslər, "Orkestr üçün 3 pyes", Kamera konserti, simli kvartet üçün "Lirik süita", "Lulu" operası, Violin ilə orkestr üçün Konsert və s.

***Violin Konserti*** (1935) Əsər violin ifaçısı Louis Krasner tərəfindən sifariş edilmişdi, bu zaman bəstəkar *Lulu* operası üzərində çalışırdı və yaxın zamanlarda bu əsərə başlaya bilməyəcəyini düşünürdü. Lakin 18 yaşlı qızın faciəli vəfatı haqda aldığı yenilik onun bu fikrini dəyişdi. Poliomielitdən vəfat etmiş Manon Gropius bəstəkarın çox yaxın olduğu Alma Mahler və Walter Gropiusun övladı idi. Berg *Lulu* operasını kənara qoyaraq "Bir mələyin xatirəsinə" adlandırdığı Violin Konsertinə başlayır və bu əsər bəstəkarın son əsəri olur. Qəribədir ki, sanki bir öncəgörmə kimi bəstəkar tərəfindən əsərdə I.S.Bach'ın əbədiyyət mövzusundan bəhs edən *"O Ewigkeit, o Donnerwort"* xoralından sitat gətirilmişdi. Əsəri bitirdikdən az sonra 50 yaşlı bəstəkar qan zəhərlənməsindən dünyasını dəyişir. Konsertin ilk ifası bəstəkarın ölümündən sonra, 19 aprel 1936-cı ildə baş tutur, solist kimi Louis Krasner çıxış eidr.

Konsert hər biri iki bölümə ayrılan iki hissədən ibarətdir. Birinci hissə klassik sonata formasında yazılmış *Andante* ilə açılır, sonradan ritmik *Allegretto* bölümü başlanır. İkinci hissənin başlanğıcı *Allegro* olaraq dərin faciəni özlüyündə əks etdirir və məhz burada solo ifaçı üçün çox mürəkkəb olan kadensiya yerləşir. Əsərin buradakı dramatik kulminasiyasından sonra zərif və sakit *Adagio* gəlir, beləliklə əsərin ilk iki bölümü həyatın təsviri idisə, son iki hissə faciəni, ölümü və ən nəhayətdə çevrilmə işığını əks etdirir.



**Qara Qarayev**in ***Violin və orkestr üçün Konserti*** (1967) – sovet musiqisinin seriya texnikasında yazılmış ilk irihəcmli əsərlərindən biri olub, Qarayev yaradıcılığının zirvələrindən sayılır. Üçhissəli silsilədə seriya yazı prinsipi geniş mənada tonallıq məfhumu ilə, müasir orkestr səslənməsi "Bach üslubunda" polifonik alət kimi – solo violin ilə, orkestr tuttisi dəqiq tembr dramaturgiyasına əsaslanaraq solist virtuozluğu ilə birləşir.

Əsərin texniki baxımdan mürəkkəb kadensiyası eyni zamanda klassik irsə əsaslanaraq musiqi təfəkkürünün dramatik inkişafını bir növ özündə cəmləşdirir. Ümumiyyətlə, müasir dövrdə unudulan termin – *dramaturgiya* Qarayevin Konserti üçün dəqiq təyin ola bilər; burada yalnız müxtəlif obraz və mövzular dialektik ziddiyyət təşkil etmir, həmçinin məna və anlayışlar – xeyir və şər, yüksəliş və rəzalət, həyat və ölüm bir-birinə qarşı qoyulur.

Bəstəkar özü əsərini xarakterizə edərkən deyirdi: *"Uçurum civarında olan insanın həyat eşqi var qüvvəsi, ideya və səs ilə mübarizə aparır. İnsan hər şeyə qalib gəlir. Hətta ölümə də".* Məhvedici ostinant ritmli, qəfil qırılaraq yenidən davam edən "mexaniki və cansız" Finalı dinlədikcə həyat və ölümün nə olduğu sualına cavabın mümkünsüzlüyü aydın olur.

Cavabsızlıq - Qarayevin Violin Konsertini müəyyənləşdirən məvhumlardan biridir.

Bəstəkarın əsəri ithaf etdiyi və Konsertin ilk ifaçısı, görkəmli musiqiçi Leonid Koqan deyirdi: *"Mənə elə gəlir ki, bu əsər bəstəkarın yaradıcılığında yeni kəsimin başlanğıcıdır. Burada Q. Qarayev musiqisində keçmişlərdə də nəzərə çarpan "yayabənzər", qıvraq enerji və bir qədər ağır, dözümlü lirika tamamilə başqa yöndə, başqa çalarda səsləndi. Özü də daha güclü və genişmiqyaslı şəkildə. Bu əsər sayəsində Q. Qarayev yaradacılığı yeni bədii ifadəliliklə zənginləşib. Əlbəttə, keçmişin dəyərlərini qorumaq şərtilə. Melodik cizginin qabarıqlığı, orijinallığı, parlaq texnika Konsertə ən seçimli əsərlərdən biri görüntüsü verir."*



Leonid Koqan

Sonralar əsəri ifa etmiş başqa böyük musiqiçi Gidon Kremer isə Konsert haqda belə demişdi: *"Mən bədii zövq və istəklərimə cavab verə biləcək lənətə gəlmiş çağdaş Konsert axtarışında ikən, eyni zamanda yaranmış və quruluşca biri-birindən olduqca seçilən bir neçə əsərlə tanış oldum. Onlar arasında Qara Qarayevin yeni bitirdiyi Konsert də vardı. Həmin Əsər bu çağdaş bədii əsər çeşidinin çağdaş quruluşu məsələsinə çox kəskin yanaşma baxımından məni əlüstü maraqlandırmağa başladı. Qarayevin sənətkar doğruculluğu, janr məsələsində "dayazlıqdan uzaq" yanaşmanı təkcə bizim öyrəşdiyimiz üçbölümlü silsilənin tamamilə qeyri-adı, oxşarsız dolğunluğunda görmək düzgün olmazdı. Bu janrda yazılan çox-çox əsərlərin dəyərini azaldan tutarsız sonluqlardan faydalı şəkildə seçilən Q. Qarayev Konsertinin dərin fəlsəfi 3-cü bölümünü yada salsaq, kifayətdir. Q. Qarayev əsərinin doğruculluğu ümumdünya violino musiqisi irsini dərin öyrənilib mənimsənilməsi, alətin səslənməsinə misilsiz ifadəlilik vermək istəyindən irəli gəlir."*





**Fərəc Qarayev** (*1943) Azərbaycan Dövlət Konservatoriyasını 1966-cı ildə prof. Qara Qarayevin sinfi üzrə bitirib. Həmin ildən Azərbaycan Konservatoriyasında dərs deməyə başlayıb. 1991-ci ildən fasilələrlə Bakı və Moskvada yaşayır. 1999-cu ildən Moskva Konservatoriyasının nəzəriyyə kafedrasının professorudur. 2003/05-ci illərdə Kazan Konservatoriyasının bəstəkarlıq kafedrasında professor kimi çalışıb. A.Krupp fondunun təqaüdçüsü olub, 1991-ci ildə Volkwang Hochschule Essen'də composer-in-residence kimi fəaliyyət göstərib.



1994/96-cı illərdə Moskvada Müasir Musiqi Assosiasiyasının (ACM) vitse-prezidenti olub. 1995-ci ildən Bakıda Yeni Musiqi cəmiyyətinin prezidentidir. 1980/94-cü illərdə BaKaRa-ensemble kollektivinin bədii rəhbəri funksiyasını həyata keçirib.

Musiqisi MDB, Avropa, Cənubi Amerika ölkələri, ABŞ, Yaponiyada keçirilən müxtəlif festival və konsertlərdə ifa olunur. Əsərlərinin təfsirçiləri arasında dirijorlardan G.Rojdestvenski, V.Sinayski, A.Lazarev, M.Şostakoviç (SSRİ/RF), R.Abdullayev və E.Bağırov (Türkiyə/Azərbaycan), I.Metzmacher (Almaniya), R. de Leeuw və E.Spanjaard (Hollandiya), R.Freisitzer (Avstriya), J.Sachs (ABŞ), ifaçılıq kollektivlərindən Студия Новой Музыки, Московский ансабль современной музыки (Rusiya), Ensemble Modern (Almaniya), Nieuw Ensemble və Schönberg Ensemble (Hollandiya), Quatuor Danel (Fransa), Continuum (ABŞ) və s. qeyd olunmalıdır. Əsərləri «Мелодия» (Rusiya), "Megadisk" (Belçika) və "Musiques suisses" (İsveçrə) kimi şirkət və səsyazma studiyalarında diskə yazılır.

Əsas əsərləri: "Journey to love" monooperası, "Qobustan kölgələri", "Kaleydoskop" baletləri, "İntizarda..." – teatr səhnəsində ifa üçün musiqi, Piano və kamera orkestri üçün Konsert, iki orkestr üçün Tristessa II, kamera orkestri üçün Tristessa I (Vida simfoniyası), simfonik orkestr üçün 1791, simli kvartet üçün "In memoriam..." süitası (A.Berg'ə ithaf), müxtəlif instrumental ansambllar üçün: "...a crumb of music for george crumb", Klänge einer traurigen nacht, alla nostalgia kamera konserti, Der stand der dinge, "Ist est genug?..", Xütbə, muğam və surə, Cancion de cuna, Babil güllləsi, Postludio I-X (müxtəlif solo alətlər və instrumental heyətlər üçün); "... messeur bee line – eccentric və ya siz hələ sağsınız, cənab nazir?" (müxtəlif solo alətlər və instrumental heyətlər üçün versiyalar); iki ifaçı üçün sonata, 6 alət üçün "Drei bagatellen", solo violonçel üçün Terminus və s.

Bəstəkarın anasına ithaf edilmiş ***Orkestr və solo violin üçün Konsert*** (2004) xüsusi sifarişlə Patricia Kopartchinskaja üçün 1999-cu idən başlanaraq 5 il müddətinə yazılmışdır. Əsər üç hissədən ibarətdir:



Patricia Kopatchinskaja

1. *Mövzusuz variasiyalar*
2. *Mövzu və allüziyalar*
3. *Dörd variasiya və mövzu*

Avtobioqrafik xarakter daşıyan bu əsərdə müəllif üçün rəmzi məna daşıyan bir çox əsərlərdən sitat gətirilir: A.Vivaldi, F.Mendelssohn, A.Berg və Q.Qarayevin Violin Konsertləri, J.Brahms'ın 3 saylı Simfoniyasından. Əsərin III hissəsinin mövzusu kimi E.Grieg tərəfindən piano üçün yazılmış "Vətən həsrəti" pyesi istifadə edilmişdir.

Əsərin instrumental tərkibi də qeyri-adidir: burada violin qrupu ümumiyyətlə yoxdur, yalnız bəm simlilər istifadə edilmişdir.

Əsərin ilk ifası 1 noyabr 2009-cu ildə Baseldə, *Culturescapes Aserbaidschan* Festivalında Basel Simfonietta orkestri və P.Kopatchinskaja tərəfindən yerinə yetirilmişdir.

Qara Qarayev IV müasir musiqi festivalı

## Festivalın Bədii Şurası

**Fərəc Qarayev** (Azərbaycan-Rusiya)
bəstəkar, Festivalı bədii rəhbəri

**Rauf Abdullayev** (Azərbaycan)
Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru

**Rauf Fərhadov** (Rusiya)
elmlər doktoru, elmi-nəzəri konfransının rəhbəri

**Aleksandr İvaşkin** (Böyük Britaniya)
elmlər doktoru, dirijor, violonçel ifaçısı

**Cahangir Səlimxanov** (Azərbaycan)
musiqişünas

**Vladimir Runçak** (Ukrayna)
bəstəkar, dirijor

**Bernhard Wulff** (Almaniya)
bəstəkar, dirijor

**Roland Freisitzer** (Avstriya)
bəstəkar, dirijor

**Elmir Mirzəyev** (Azərbaycan)
bəstəkar, layihənin koordinatoru

## Festivalın işçi qrupu

**Fərəh Əliyeva**
**Sara Muradova**
**Aybəniz Məmmədova**
**Rüfət Xəlilov**
**Firudin Allahverdi**
**Şükür Səmədov**
**Vazeh Mustafa**

Bukletin tərtibatında Qara Qarayevin şəxsi arxivindən unikal foto sənədlər istifadə edilmişdir.
Tərtibatçı Elmir Mirzəyev




Qara Qarayev adına I müasir musiqi
Festivalının kitabçası (1986)



...Sənətçiləri gəmilərə bənzətmək olar: bəziləri geniş, ucu – bucağı görünməyən, fırtınalı və hər zaman yeniliyində belə sonsuz dənizdə üzməyi sevir, digərləri isə səssiz, sakit, fırtınalardan və qorxulardan uzaq limanlarda lövbər salmağa can atırlar...

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi